HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 22 (712) ■ 11 iyun 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Müasir Azərbaycan: Heydər Əliyevin şah əsəri

*Tarixdə şəxsiyyətlərin böyüklüyü, onların miqyası bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin gələcək əks-sədaları, uzun illər hadisələrin axarına təsiri ilə müəyyənləşir. Bu baxımdan, ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan fikrimizə bariz nümunədir.*



Zəngin keçmişə və qədim dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının tarixinə nəzər saldıqda onun XX əsrdə ən parlaq səhifələrini əhatə edən dövrün ümummilli lider Heydər Əliyev fenomeni ilə bağlılığını, bu zaman kəsiyində ölkəmizin keçdiyi böyük inkişaf yolunun məhz ulu öndərin misilsiz xidmətlərinin nəticələri olduğunu bir daha aydın müşahidə etmək mümkündür. Azərbaycanın yeni yüzilliyə müstəqil dövlət olaraq böyük uğurlara imza atmış ölkə kimi qədəm qoyması da Heydər Əliyev dühası ilə bağlıdır.

Tarixi həqiqətdir ki, Azərbaycan sürətli və böyük inkişaf yolunu məhz Heydər Əliyev epoxasında keçib, dünyanın siyasi sistemində özünəməxsus yerini müəyyənləşdirib, yeni dövrün tələblərinə uyğun olaraq dövlətçiliyin əsaslarını, onun fəlsəfəsini yaradıb. Ziddiyyətlərlə dolu XX əsrdə müstəqilliyə gedən yolun başlanğıcı da Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev tərəfindən qoyulub. Hələ SSRİ imperiyasının ən qüdrətli dövründə, ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütövlükdə cəmiyyət Heydər Əliyevin göstərdiyi səylər nəticəsində yeni impuls və inkişaf parametrləri qazanaraq, əslində, özünün mükəmməl və müstəqilliyə hesablanan inkişaf mərhələsinə daxil olub.

Ötən əsrin son onillyində dövlət müstəqilliyinin bərqərar olunması istiqamətində atılan ən mühüm addımlar da bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Moskvadan Azərbaycana qayıtdıqdan sonra Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından «sovet sosialist» sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması ulu öndərin müstəqilliyə gedən tariximizdə ən parlaq xidmətləri sırasına daxildir. Məhz Heydər Əliyevin bu addımlarından sonra - 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra mühüm qərarlar qəbul etdi, dövlətin adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Dövlət müstəqilliyinin ilk illərində iqtidarda olan səriştəsiz qüvvələr üzündən olduqca çətin duruma düşən, Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazi itkiləri ilə üzləşən, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi yaşayan Azərbaycanın ağır günlərində xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürdü, ictimai-siyasi sabitliyin tam bərpasına nail oldu, qanunsuz silahlı dəstələri zərərsizləşdirdi, demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi inkişaf strategiyasını irəli sürdü ki, bütün bunlar müstəqilliyin qorunub saxlanmasında və daha güclü dayaqlara malik olmasında müstəsna rol oynadı.

**Davamı 5 səhifədə**

# Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

## Bodrumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı keçirilmişdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında iştirak etmək üçün iyunun 4-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

Tədbirin keçirildiyi Bodrumda Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurlu inkişafından məmnunluq ifadə edilmiş, strateji əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik bildirilmiş, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısının türkdilli xalqlar və ölkələr arasında əməkdaşlığın, regional əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verəcəyi vurğulanmışdır.

Həmin gün dövlətimizin başçısı Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə də görüşmüşdür. Türkmənistanın dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin genişləndiyini və yüksələn xətt üzrə inkişaf etdiyini bildirmiş, enerji təhlükəsizliyi və nəqliyyat şəbəkələrinin daha da möhkəmləndirilməsi məsələlərində də respublikamızın dəstəyinin hiss olunduğunu, xüsusilə də mötəbər beynəlxalq təşkilatlarda, həmçinin BMT-də Azərbaycan ilə Türkmənistan arasında mehriban qonşuluq və qardaşlıq münasibətlərinin mövcudluğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, dövlət başçıları arasında keçirilən hər görüş zamanı məsləhətləşmələr ikitərəfli münasibətlərimizin tərəqqisinə yeni yollar açır.

Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə də görüşmüş, hər iki ölkə arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafı ilə bağlı müzakirələr aparılmışdır. Tərəflər əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğunu qeyd etmişlər. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

İyunun 5-də Türkiyənin Bodrum şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı keçirilmişdir. Türkiyə Prezidenti Abdullah Gül türkdilli dövlətlərlə əlaqələrin genişlənməsində bu təşkilatın böyük rolu olduğunu bildirmiş, təşkilat çərçivəsində dövlət başçıları arasında əlaqələrin səmərəli olduğunu və ikitərəfli münasibətlərin inkişafına xidmət etdiyini diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, 2009-cu ildə Naxçıvan Zirvə toplantısında təsis olunan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ötən dövrdə böyük inkişaf yolu keçmiş, builki Zirvə toplantısının mövzusu turizmə həsr olunmuşdur.




Tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev indiyədək keçirilən Zirvə toplantıları çərçivəsində görülən işlərin türkdilli dövlətlərin birliyinin daha da möhkəmlənməsinə töhfə verdiyini bildirmişdir: «Keçən il ərzində müxtəlif istiqamətlər üzrə əməkdaşlığımız davam etmişdir. Bu gün sadəcə olaraq bir neçə məqamı qeyd etmək istərdim. İl ərzində BMT Məclisi çərçivəsində xarici işlər nazirlərinin görüşü keçirilmişdir. Bu, Şuranın siyasi məsələlərinin həlli üçün önəmli bir addım idi. Eyni zamanda, iqtisadi sahədə görülən işlər də təqdirəlayiqdir. Biznes forum keçirilmişdir. Diaspor təşkilatlarının fəaliyyətini təkmilləşdirmək üçün önəmli addımlar atılmışdır. Təhsil, nəqliyyat nazirlərinin görüşləri keçirilmişdir. Çox şadam ki, Azərbaycanın təşəbbüsü ilə Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması da artıq reallaşır. Əminəm ki, bu Fond yaranandan sonra müxtəlif layihələri, mədəniyyətlə, incəsənətlə, ortaq tariximizlə bağlı tədbirləri keçirmək üçün yaxşı imkanlar olacaqdır».

Azərbaycan Prezidenti onu da vurğulamışdır ki, keçən il Qəbələdə Azərbaycan tərəfinin təşəbbüsü ilə türkdilli ölkələrin beynəlxalq turizm sərgilərində birgə stendlərlə çıxış etməsi reallaşmış, Bakıda keçirilmiş beynəlxalq turizm sərgisində Əməkdaşlıq Şurasına üzv ölkələrin birgə fotostendi nümayiş etdirilmişdir: «Bu, birinci addımdır. Hesab edirəm ki, növbəti illərdə biz başqa ölkələrdə birgə turizm potensialımızı təqdim etməliyik. Bunun həm də birliyimiz üçün önəmi vardır. Çünki bu, birliyimizin bir təzahürü və praktik nöqteyi-nəzərdən önəmli addım olacaqdır».

Dövlətimizin başçısı türkdilli dövlətlər arasında humanitar əlaqələrin genişlənməsində TÜRKSOY-un fəaliyyətini də yüksək qiymətləndirmiş, bu təşkilatın mənəvi cəhətdən, mədəniyyət sahəsində işlərini təqdir etmişdir. Beynəlxalq təşkilatlar çərçivəsində türkdilli dövlətlərin birgə fəaliyyətinə toxunan Prezident İlham Əliyev xüsusilə BMT-də, İslam Əməkdaşlıq Təşkilatı, ECO təşkilatı çərçivəsində birgə dəstəyin hiss olunduğunu xatırlatmışdır. Azərbaycan Prezidenti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində iqtisadi əməkdaşlığın daha da dərinləşdirməli olduğunu, bu sahədə investisiya layihələrinin icrasının xüsusi önəm daşıdığını qeyd etmişdir: «Deyə bilərəm ki, Azərbaycan hazırda Türkiyəyə böyük həcmdə investisiya qoymağa başlamışdır. Növbəti 5-6 il ərzində bu investisiyaların həcmi ən azı 20 milyard dollar olacaqdır. Hesab edirəm ki, qarşılıqlı investisiyaların qoyuluşu həm bizim maraqlarımızı təmin edəcək, eyni zamanda, birliyimizi daha da möhkəmləndirəcəkdir. Eyni zamanda, bizim birliyimizi nəqliyyat infrastrukturu ilə möhkəmləndirmək üçün Azərbaycan öz səylərini qoyur. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi tarixi hadisədir. Əminəm ki, gələn ildən başlayaraq bu yol açıq olacaqdır. Beləliklə, yeni dəmir ipək yolu bərpa ediləcəkdir. Bu layihənin həyata keçirilməsi Şuranın bütün üzvləri üçün əlavə fayda gətirəcəkdir».

Enerji sahəsində uğurlu əməkdaşlıqdan danışan Prezident İlham Əliyev bildirmişdir ki, bu gün Azərbaycan Xəzərin şərq sahilindən Qərb istiqamətinə neft məhsullarının, neftin nəqlini təmin edir, yəni tranzit rolunu oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu işə düşəndən sonra bu rol daha da artacaqdır: «Biz enerji sahəsində əməkdaşlığı daha da dərinləşdirmək əzmindəyik. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizi birləşdirən coğrafiya geniş coğrafiyadır. Bizim ölkələrimizin bir neçəsi təbii resurslarla zəngindir. Bu resurslar artıq müxtəlif yollarla dünya bazarlarına çıxarılır. Yəni, həm Türkmənistanın, həm Qazaxıstanın, həm Azərbaycanın müstəqil və çoxşaxəli ixrac yolları vardır. Yəni, heç bir ölkə ixracla bağlı heç bir problem yaşamır. Ancaq maraqlarımızı daha da dolğun şəkildə təmin etmək, birliyimizi möhkəmləndirmək üçün biz bu sahədə birgə tədbirləri görməliyik və əminəm ki, görəcəyik. Beləliklə, əməkdaşlığımız növbəti illərdə daha da möhkəm olacaqdır. Yeni təşəbbüslər irəli sürüləcəkdir».

Zirvə toplantısında iştirak edən digər dövlət başçıları da çıxış etmişlər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısına yekun vuran Türkiyə Prezidenti Abdullah Gül tədbirdə müzakirə olunan məsələlərin türkdilli dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyini vurğulamış, V Zirvə toplantısının Qazaxıstanda keçiriləcəyini bildirmişdir.

Sonra dövlət başçıları Zirvə toplantısının birgə Bəyannaməsini, Türk Şurası baş katibinin və müavinlərinin təyin olunması, eləcə də Türk Akademiyasının prezidentinin seçilməsi ilə bağlı qərarı imzalamışlar.

Zirvə toplantısı başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun birgə görüşü olmuşdur. Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısının xalqlarımız və ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyi bildirilmişdir. Azərbaycan, Türkiyə və Türkmənistan arasında müxtəlif səviyyəli görüşlərin əhəmiyyəti vurğulanmış, ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olunmuşdur.

2 Azərbaycan bu il FATCA ilə bağlı sazişi imzalayacaq

4 Yoxlamalarla bağlı yeni qaydalar təsdiqlənib

5 Vətəndaşlara yerlərdə xidmət göstərilir

6 Əmək bazarı ilə bağlı yeni strategiyanın əsas istiqamətləri

# Azərbaycan bu il FATCA ilə bağlı sazişi imzalayacaq



*İyun ayının 6-da Vergilər Nazirliyində vergilər nazirinin birinci müavini, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirovun sədrliyi ilə Amerika Birləşmiş Ştatlarının Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) ilə bağlı iclas keçirilmişdir. İclasda Vergilər Nazirliyinin əməkdaşları və ölkəmizdə fəaliyyət göstərən bankların rəhbər vəzifəli şəxsləri iştirak etmişlər.*

Əvvəlcə tədbir iştirakçılarına Vergilər Nazirliyinin hazırladığı «FATCA və Azərbaycan» adlı slayd təqdim olunmuşdur. Təqdimatda bildirilir ki, FATCA ABŞ Konqresi tərəfindən 18 mart 2010-cu il tarixində qəbul edilmiş və 1 yanvar 2013-cü ildən qüvvəyə minmişdir. Bu sənəd ABŞ vətəndaşları və digər vergi ödəyicilərindən onların başqa dövlətlərdə olan maliyyə hesabları haqqında, xarici maliyyə institutlarından özlərinin bu cür müştəriləri barədə məlumatların ABŞ-ın Daxili Gəlirlər İdarəsinə (IRS) açıqlanmasını tələb edir. Əsas məqsəd vergidən yayınmaya qarşı mübarizə və federal vergi gəlirlərinin artırılmasıdır. FATCA-ya əsasən, ABŞ vergi ödəyiciləri hesab olunan şəxslər xarici hesabları və digər maliyyə aktivləri barədə məlumatları vergi bəyannaməsi ilə birlikdə IRS-ə təqdim etməlidirlər. İstənilən dövlətin qanunlarının tələblərinə əməl etməyən, yəni IRS-lə əməkdaşlıqdan boyun qaçıran maliyyə institutlarını 2014-cü ilin 1 iyul tarixindən etibarən ciddi sanksiyalar gözləyir və onlara ABŞ-dakı və FATCA-ya əməl etmək öhdəliyini qəbul etmiş digər dövlətlərdəki maliyyə institutlarında olan müxbir hesablar vasitəsilə edilən ödənişlərdən müxbir hesabın yerləşdiyi maliyyə institutu tərəfindən ödəmə mənbəyində 30% vergi tutularaq IRS-ə köçürülməlidir.

FATCA qəbul edildikdən sonra ABŞ Xəzinədarlıq Departamenti və IRS FATCA-nın tətbiqi üçün digər dövlətlərlə hökumətlərarası sazişlərin bağlanması yolu ilə məlumatların alınması variantı da qəbul edilmiş və təklif olunan hökumətlərarası sazişin iki modeli hazırlanmışdır. 1-ci model məlumatların maliyyə institutları tərəfindən birbaşa IRS-ə deyil, öz dövlətlərinin səlahiyyətli orqanına, həmin orqan tərəfindən isə İRS-ə ötürülməsini nəzərdə tutur. Hazırda 34 ölkə ABŞ-la müvafiq saziş imzalamış, 36 ölkə isə (o cümlədən Azərbaycan) həmin sazişi imzalamaq üçün danışıqları davam etdirir.

Vergilər nazirinin birinci müavini Natiq Əmirov Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı ilə əlaqədar görülmüş işlər barədə danışmışdır. Bildirilmişdir ki, Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli sərəncamı ilə FATCA-nın tətbiqi məqsədilə Amerika Birləşmiş Ştatları Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında sazişin bağlanması məqbul hesab edilmişdir. Qeyd edilən sərəncamla bağlanması nəzərdə tutulan sazişin modeli kimi mümkün olan ən əlverişli model, yəni dövlətlər arasında qarşılıqlı məlumat mübadiləsini nəzərdə tutan 1A Modeli, məlumat mübadiləsinin aparılması məqsədi ilə səlahiyyətli orqan qismində isə Vergilər Nazirliyi müəyyən edilmişdir. Hökumətlərarası Saziş layihəsinin mətninin razılaşdırılması məqsədilə Nazirlər Kabinetinin eyni sərəncamı ilə müvafiq komissiya yaradılmış və komissiyanın sədri vergilər nazirinin birinci müavini Natiq Əmirov təyin edilmişdir. Komissiya tərəfindən Hökumətlərarası Saziş layihəsinin ilkin mətni üzrə diplomatik kanallar vasitəsilə ABŞ tərəfi ilə aparılmış müzakirələr nəticəsində 1A Modeli üzrə ümumi razılıq əldə edilmiş, bununla da 16 may 2014-cü il tarixdə Azərbaycan Respublikası tərəfdaş ölkələr siyahısına daxil edilmişdir.

Respublikamızın maliyyə institutları üçün IRS-in portalında qeydiyyatdan keçmək müddəti mayın 5-dən dekabrın 31-dək uzadılmışdır. Bununla yanaşı, ölkəmizin maliyyə institutlarının iyulun 1-dən başlayaraq tətbiq olunacaq sanksiyaların təsiri altına düşməyəcəyi birmənalı olaraq təmin edilmişdir.

Natiq Əmirovun sözlərinə görə, FATCA ilə bağlı bundan sonra görüləcək əsas işlərə dekabrın 31-dək ABŞ-la Hökumətlərarası Sazişin imzalanması və Azərbaycanın maliyyə institutlarının IRS-in portalında qeydiyyatdan keçməsi kimi məsələlər daxildir. Mahiyyəti üzrə razılıq əldə edilmiş Hökumətlərarası Saziş layihəsinin imzalanması təmin edildikdən sonra tərəflərin səlahiyyətli orqanları arasında məlumat mübadiləsinin praktiki təşkilinin formatı, konfidensiallığın qorunması və digər məsələləri tənzimləyən əlavə razılaşma sənədi imzalanacaqdır. Həmin razılaşmanın son tarixi kimi 30 sentyabr 2015-ci il nəzərdə tutulmuşdur.

Tədbirdə FATCA ilə bağlı ətraflı müzakirələr aparılmışdır.

**Elbrus CƏFƏRLİ**

# Gələcək gənc kadrlarla görüş keçirilmişdir

*İyun ayının 4-də Vergilər Nazirliyində vergi orqanlarına işə qəbul olunmaq üçün test imtahanından müvəffəqiyyətlə keçmiş 76 namizədlə görüş keçirilmişdir. Nazirliyin İnsan resursları idarəsinin rəisi, baş vergi xidməti müşaviri Faiq Şahbazov imtahanda 70-dən yuxarı bal toplamış gənc namizədləri təbrik etmiş, onlara uğurlar arzulamışdır.*

Qeyd edilmişdir ki, Vergilər Nazirliyi ölkəmizdə işə qəbulu test üsulu ilə keçirməyə başlamış ilk mərkəzi icra hakimiyyəti orqanıdır. İndiyədək keçirilmiş 9 müsabiqə nəticəsində vergi xidmətinə 1000 nəfərdən çox gənc kadr işə qəbul olunmuş, indi isə daha 76 namizəd növbəti mərhələdə - müsahibədə öz qüvvəsini sınamaq imkanı qazanmışdır. Onlar növbəti mərhələdə Vergilər Nazirliyinin Aparatında müsabiqə komissiyası tərəfindən müsahibədən keçəcəklər. Həmin mərhələdən də uğurla keçən namizədlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər.



Xatırladaq ki, müsahibənin dəqiq vaxtı və nəticələri barədə Vergilər Nazirliyinin rəsmi internet saytında (www.taxes.gov.az) və kütləvi informasiya vasitələrində məlumat veriləcəkdir.

Görüşdən sonra müsabiqədə müvəffəqiyyət qazanmış bir neçə namizədlə söhbət edib, onların təəssüratlarını öyrəndik.

*Eldar İmranov:* «Həmişə olduğu kimi, bu dəfə də imtahanlar yüksək səviyyədə təşkil olunmuşdu. Artıq ikinci dəfədir ki, vergi işçisi olmaq arzusu ilə imtahan verirəm. Bu il çətin sınağın ilk mərhələsindən uğurla keçdiyimə görə çox sevinirəm. Növbəti mərhələdə yaxşıların içərisindən ən yaxşıları seçiləcək».

*Rövşən Qurbanov:* «Müsabiqədən keçən hər kəsi təbrik edirəm. Bugünkü görüşün təşkil olunması üçün Vergilər Nazirliyinin rəhbərliyinə təşəkkür edirəm: bu, namizədlər üçün seçim prosesi barədə obyektiv təsəvvür formalaşdırır. Ümid edirəm ki, ikinci mərhələni də uğurla başa vura biləcəm».

*Fidan Zeynalova:* «Müsabiqə şəffaf və obyektiv şəkildə keçirildi. İmtahan suallarının çətin olmasını müsbət hal hesab edirəm. Bu, yəqin ki, nazirliyin öz sıralarında daha yüksək təhsilə malik kadrları görmək istəyindən irəli gəlir. Test imtahanında 74 bal toplamışam və bu uğuruma çox sevinirəm. İkinci mərhələni həyəcanla gözləyirəm. Bu, vergi əməkdaşı olmaq arzumun reallaşması istiqamətində sonuncu mərhələ olacaq. Ümid edirəm ki, ikinci mərhələni də uğurla başa vuraraq, böyük hörmət bəslədiyim vergi işçisi formasını geyinib dövlətimizə və xalqımıza xidmət göstərmək imkanı qazanacağam. İnsanın arzuladığı və sevdiyi işlə məşğul olması ona böyük zövq verir».

**AYTƏN**

# Operativ nəzarət tədbirləri

2014-cü ilin may ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 5543 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir.

2482 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 1166 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 932 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Operativ nəzarət tədbirləri zamanı 398 vergi ödəyicisi tərəfindən 576 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 216 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 85 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 2493 ədəd mal olduğu müəyyən edilmişdir.

Aşkar olunmuş faktlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

# «Vergi dostları» «dəyirmi masa» arxasında

*İyun ayının 4-də və 5-də Azərbaycan Respublikasında vergi siyasəti, onun əsas istiqamətləri, vergi ödəyicilərinə göstərilən xidmətlər, "Vergi dostları" layihəsi ilə əlaqədar 13 saylı Ərazi Vergilər İdarəsi və layihə iştirakçıları tərəfindən görülmüş işləri, problem və nəticələri nəzərdən keçirmək üçün Zaqatala, Balakən və Qax rayonlarında «dəyirmi masa» keçirilmişdir.*



Tədbir iştirakçılarına Azərbaycanda 2013-2020-ci illərdə vergi siyasətinin əsas istiqamətləri, ölkəmizin vergi sisteminin real vəziyyəti və onun perspektiv inkişaf təmayülləri haqqında ətraflı məlumat verilmişdir. Qeyd edilmişdir ki, Vergilər Nazirliyi vergilərə dair problemlərin açıq dialoq şəraitində müzakirəsi üçün geniş imkanlar yaradır və bu yeni platforma olduqca səmərəli nəticələr verir. Məqsəd milli vergi sisteminin dünya standartlarına uyğunlaşdırılması və ən müasir texnoloji əsaslarda inkişaf etdirilməsi üçün vergi ödəyiciləri ilə qarşılıqlı etimad şəraitində müzakirələrin aparılması, könüllü əməletmə səviyyəsinin artırılmasıdır. Bu işlərin daha da gücləndirilməsi məqsədilə xüsusən vergi orqanlarının və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzlərindən kənarda olan kənd və qəsəbələrdə Vergilər Nazirliyi tərəfindən 2012-ci ildən «Vergi dostları» layihəsinin tətbiqinə başlanılmışdır. İndiyədək respublikanın 53 rayonu üzrə 1541 nəfər müəllimə müvafiq təlim keçilmiş və «vergi dostu» sertifikatı təqdim olunmuşdur. «Vergi dostu» yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirir, vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə məlumatlandırma aparır, uşaq və gənclərə vergilərin əhəmiyyətini izah edir, vergilərə dair metodiki kabinetlərdə təşkil olunan görüş və treninqlərdə iştirak edir.

«Vergi dostu» seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, eləcə də gördükləri işlər barədə operativ məlumat vermək imkanlarının genişləndirilməsi, bu sahədə təcrübələrini bölüşmələri məqsədilə «Facebook» sosial şəbəkəsində «Vergi dostları» qrupu yaradılmışdır. Hazırda qrupun 900-dən artıq üzvü var.

«Vergi dost»ları kimi seçilmiş müəllimlər ötən müddət ərzində görülən işlər və layihə çərçivəsində keçirdikləri tədbirlər, məlumatlandırma formaları barədə məlumat vermişlər. «Vergi dostu» seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, nəzarətin təşkili məqsədilə 50 metodist müəyyən edilmişdir.

Layihə çərçivəsində Vergilər Nazirliyinin nümayəndələri Zaqatala rayonunun Car, Balakən rayonunun Hənifə və Qax rayonunun İlisu kəndlərini təmsil edən «vergi dostları»nın təşkil etdikləri «açıq dərsdə» iştirak etmiş, onlara öz tövsiyələrini vermişlər.

# Milli Məclisin plenar iclasında dövlət büdcəsi müzakirə olunmuşdur



## *Ötən illərdə olduğu kimi, Vergilər Nazirliyinin xətti ilə qeyri-neft-qaz sektoru üzrə proqnozlar tamamilə icra olunmuşdur*

Parlament «Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında» qanun layihəsini təsdiqləmişdir. Maliyyə naziri Samir Şərifovun sözlərinə görə, 2013-cü ildə dövlət və icmal büdcə göstəricilərinin artım dinamikası təmin edilməklə ölkənin iqtisadi potensialının gücləndirilməsi və qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi imkanları genişlənmişdir. Ötən il dövlət büdcəsinin gəlirləri 19 milyard 159 milyon manat proqnoza qarşı 19 milyard 496 milyon manat və ya 101,8% icra olunmuşdur. Bu isə 2012-ci ilin göstəricisindən 12,8% çoxdur. Dövlət büdcəsi gəlirlərinin 58,2%-i Dövlət Neft Fondundan transferin, 34,2%-i Vergilər Nazirliyinin, 7,1%-i Dövlət Gömrük Komitəsinin xətti ilə və digər istiqamətlərdən daxilolmaların payına düşmüşdür.

Bildirilmişdir ki, hesabat ilində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf sürəti daha yüksək olmuş, bu sektorda əlavə dəyərin 10%-lik artımı təmin edilmişdir. Onun ÜDM-də xüsusi çəkisi əvvəlki ilə nisbətən 3,1% artaraq 56,6%-dək yüksəlmişdir. Ölkənin valyuta ehtiyatları 9% artaraq 50 milyard dolları ötmüşdür ki, bu da dövlətin xarici borcundan 9 dəfə çoxdur. Ölkə əhalisinin gəlirləri əvvəlki illə müqayisədə 8%, əhalinin hər nəfərinə düşən gəlirləri 6,6% artaraq istehlak qiyməti indeksini 4,2% üstələmişdir. Ölkədə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sosial sahədə də müsbət irəliləyişə nail olunmuşdur. Hesabat ilində dövlət büdcəsi xərclərinin 25,6%-i sosial yönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir.

Qanun layihəsində Maliyyə Nazirliyi və Hesablama Palatasının birgə hazırladığı makroiqtisadi göstəricilərdə 2013-cü ilin dövlət büdcəsinin və iqtisadi inkişafın əsas parametrləri təhlil edilmiş, son 10 ildə ölkəmizin sosial-iqtisadi həyatında baş verən dəyişikliklər vurğulanmışdır. Qeyd edilmişdir ki, son 10 ildə Azərbaycanda ÜDM 3,4 dəfə artmışdır. Bu da dünyada baş verən proseslər fonunda çox yüksək artım deməkdir. Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi artıq 150 milyard dolları keçmişdir. Son 5 il ərzində iqtisadiyyata 80 milyard dollardan çox investisiya yatırılmışdır. 2013-cü ildə Azərbaycanda ÜDM-in həcmi 73 milyard dollar təşkil etmişdir. 2008-ci ildə bu rəqəm 48,8 milyard dollar idi. Hazırda ölkədə adambaşına düşən ÜDM-in həcmi 7,8 min dollardır. Bu göstəriciyə görə Azərbaycan MDB ölkələri arasında ilk sıralarından birini tutur. 2013-cü ildə ÜDM bölüşdürülməsində dövlət büdcəsinin payı 33,8% olmuşdur.

Xüsusi vurğulanmışdır ki, Azərbaycanda gündən-günə möhkəmlənən maliyyə bazası, iqtisadi inkişafımızın dinamikliyi dövlət büdcəsi gəlirlərinin də sabitliyinə imkan yaradır. Ötən illərdə olduğu kimi, Vergilər Nazirliyinin xətti ilə qeyri-neft-qaz sektoru üzrə proqnozlar tamamilə icra olunmuşdur. Bu sektor üzrə gələn gəlirlər ümumi gəlirlərdə 56,5% təşkil etmişdir.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2013-cü ildə dövlət büdcəsinin gəlir və xərclərini əhatə edən təhlillər haqqında danışarkən bildirmişdir ki, dünya ölkələri iqtisadi böhranın təsiri və dəyişkən makroiqtisadi şəraitdə yaranan risklərlə mübarizə apardığı bir dövrdə Azərbaycan 5,8%-lik real iqtisadi artım tempinə nail olmuşdur. Əldə edilən nəticələr «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən olunmuş hədəflərə çatmaq istiqamətində mühüm addımlar atıldığını göstərir.

«Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında» qanun layihəsini təqdim edən Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə bildirmişdir ki, Milli Məclisə 21 rayon üzrə 204 bələdiyyədən sənəd daxil olub. Müraciətləri nəzərə alaraq parlament bələdiyyələrin birləşməsinə dair yeni qanun layihəsi hazırlamışdır. Layihədə əvvəlki 204 bələdiyyənin əvəzinə 94 yeni bələdiyyənin yaradılması nəzərdə tutulmuşdur.

Deputatlar «Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında» Qanunu və «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş «Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı»nda dəyişikliklər olunması barədə» qanun layihəsini səsvermə yolu ilə qəbul etmişlər.

Milli Məclisin iclasında Azərbaycan Respublikasının Vergi Məcəlləsində, «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında», «Dövlət rüsumu haqqında», «Azərbaycan Respublikasının Nizami Gəncəvi adına qızıl medalı»nın təsis edilməsi ilə əlaqədar «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirə edilmişdir. «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında», «Körpələr evlərinə, körpələr evi-uşaq bağçalarına, uşaq bağçalarına, xüsusi uşaq bağçalarına və uşaq evlərinə müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə qanun layihələri də müzakirə olunaraq qəbul edilmişdir.

**Rəşad SADIQOV**

# Vergilər Nazirliyinin guşəsi maraqla qarşılanmışdır

*İyunun əvvəlində Bakıda Xəzər regionunun enerci sektorunun ən iri tədbiri - 21-ji Beynəlxalq «Xəzər Neft və Qaz 2014» sərgi və konfransı keçirilmişdir. Azərbayjanın neft-qaz sənayesi tarixində mühüm hadisə olan «Əsrin müqaviləsi»nin 20-ji ildönümü ərəfəsində keçirilən bu sərgidə dünyanın 29 ölkəsini təmsil edən 402 şirkət və təşkilat iştirak etmişdir.*

Vergilər Nazirliyinin sərgidə nümayiş etdirilən guşəsini tədbir iştirakçıları, xüsusilə xariji və yerli sahibkarlar böyük maraqla qarşılamışlar. Tədbir keçirilən müddətdə Vergilər Nazirliyinin əməkdaşları tərəfindən guşəyə baş çəkən iştirakçıları maraqlandıran suallara javab verilmiş, çoxlu sayda məlumat xarakterli materiallar və nəşrlər paylanmışdır.



# Müraciətlər vaxtında cavablandırılır

2014-cü ilin may ayında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi tərəfindən 10904 sual xarakterli müraciət cavablandırılmışdır. Həmin müraciətlər, əsasən, qeydiyyat (19%), vergi növlərinin tətbiqi (14%), elektron imza (12%), elektron xidmətlər (11%), hesabatlar (10%), büdcə, vergi ödəyiciləri və vergi orqanlarının rekvizitləri (4%) və s. barədə olmuşdur.

Canlı rejimdə daxil olan müraciətlərin 95,7%-i müfəttiş-operatorlar tərəfindən birbaşa cavablandırılmış, 4,3%-i isə araşdırma aparılması üçün müraciət vərəqəsi tərtib edilmişdir. Araşdırmaya qəbul edilmiş sual xarakterli müraciətlər orta hesabla 1,6 gün ərzində cavablandırılmışdır.

May ayında vergi ödəyiciləri tərəfindən 1248 dəfə vergi borcu, 598 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir. Həmin dövrdə vergi ödəyiciləri 205851 halda mesaj göndərilməklə məlumatlandırılmışdır ki, onlardan 205094-ü qısa mesaj, 757-si isə ikitərəfli mesaj olmuşdur.

Cari ilin may ayında Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 362312 istifadəçi daxil olmuşdur.






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Qiymətli kağızların vergiyə cəlb olunması

Qiymətli kağızlar bazarından əldə edilən gəlirlərin vergiyə cəlb olunması dünya ölkələrində həm nəzəri, həm də praktiki cəhətdən diqqət yetirilən mühüm vergi məsələlərindən biridir. Buna baxmayaraq, xarici ölkələrin vergi sistemləri bu məsələlərin həllində hələ də müəyyən çətinliklərlə üzləşməkdədir. Bu, daha çox son dövrlərdə yeni törəmə maliyyə alətlərinin meydana çıxması və inkişafı ilə əlaqələndirilir.

Qeyd etmək lazımdır ki, xarici ölkələrdə maliyyə xidmətləri bazarı uzun dövrlər ərzində daim dəyişən qanunvericilik şəraitində formalaşmış və hər dəfə yeni qanunvericilik normalarına uyğunlaşdırılmışdır. Bir neçə onilliklər öncə əksər ölkələrin iqtisadiyyatı demək olar ki, qapalı xarakter daşıyırdı. Belə ölkələrin hökumətləri xaricdən asılı olmaq təhlükəsinə görə kənardan gələn investisiyalara çox ehtiyatla yanaşırdılar. Lakin ötən əsrin 70-ci illərindən başlayaraq, bu fikirlər kökündən dəyişmişdir. Artıq iqtisadçılar və siyasətçilər başa düşmüşlər ki, xarici investisiyalar ölkə iqtisadiyyatını inkişaf etdirən əsas amillərdən biridir.

Son illərdə dünya iqtisadiyyatında vergi rəqabəti daha da artmış, vergi yükü yüksək olan ölkələrdən güzəştli vergi rejimi tətbiq edən ölkələrə kapital axını güclənmişdir. Bu da onu göstərir ki, bütün hallarda tətbiq olunan vergi rejimi xarici investisiyaların ölkədə yerləşdirilməsinə təsir edən əsas amillərdən biridir. Bundan irəli gələrək, əksər dövlətlər investisiya qoyuluşları üçün əlverişli şəraitin yaradılmasını həyata keçirdikləri vergi siyasətinin əsas istiqamətlərindən birinə çevirmişlər.

*Hesablamalara görə, qiymətli kağızlar bazarında gün ərzində aparılan əməliyyatların sayı mal və digər xidmətlərlə aparılan ticarət əməliyyatlarının sayını təxminən 50 dəfədən çox üstələyir*

Qiymətli kağızlar bazarından əldə edilən gəlirlərə qiymətli kağızlarla aparılan əməliyyatlardan, qiymətli kağızları saxlayan şəxslərə ödənilən dividendlərdən və qiymətli kağızların dəyərinin artımından əldə olunan gəlirlər aiddir. Qiymətli kağızlarla aparılan əməliyyatların vergiyə cəlb olunması dünyanın bir çox ölkələrində fərqli formalarda (misal üçün, birja vergisi, gerb yığımı və s.) həyata keçirilir. Buna baxmayaraq, iqtisadi ədəbiyyatda onlar bir ad altında - «qiymətli kağızlarla aparılan əməliyyatdan vergi» kimi birləşdirilir. Qiymətli kağızlarla aparılan əməliyyatlardan vergi bir çox hallarda mübahisələrə də səbəb olur. Bu verginin tərəfdarları təsdiq edirlər ki, onun tətbiqi bazardakı qeyri-sabitliyi aradan qaldırır və maliyyə böhranlarının qarşısının alınmasına kömək edir. Bundan əlavə, onlar daha bir arqument kimi, bu verginin dövlət xəzinəsinin potensial gəlir mənbələrindən biri olduğunu göstərirlər. Çünki hesablamalara görə, qiymətli kağızlar bazarında gün ərzində aparılan əməliyyatların sayı mal və digər xidmətlərlə aparılan ticarət əməliyyatlarının sayını təxminən 50 dəfədən çox üstələyir. Bu verginin tətbiqinin əleyhinə olanalar isə qeyd edirlər ki, onun tətbiqi əlverişsiz olduğu üçün maliyyə bazarına müəyyən ziyan gətirə bilər. Lakin bunlara baxmayaraq, qiymətli kağızlarla aparılan əməliyyatlardan vergi, demək olar ki, dünyanın əksər ölkələrində tətbiq olunur.

ABŞ-da fond bazarında qiymətli kağızlarla aparılan əməliyyatların əksəriyyəti 0,003 faiz dərəcə ilə vergiyə cəlb olunur. Böyük Britaniyada qiymətli kağızlar üzrə gerb yığımı müəyyən edilmişdir. Bu yığım səhmlərin və digər maliyyə əməliyyatlarının həcmindən 0,5 faiz miqdarında tutulur. Qiymətli kağızlarla aparılan əməliyyatlardan vergi Fransada və İtaliyada səhmdar cəmiyyətlərinin səhmləri üzrə 0,14 faiz, dövlət istiqrazları üzrə 0,16 faiz həcmində tətbiq edilir. Lakin bəzi ölkələr o cümlədən Yaponiya, Almaniya və Kanada bu verginin tətbiqindən imtina etmişdir.

Azərbaycanda isə qiymətli kağızların satışından əldə olunan mənfəət (gəlir) ümumi qaydada vergiyə cəlb olunur. Qiymətli kağızlara görə əldə edilən dividendlərdən və qiymətli kağızların dəyərinin artımından tutulan vergi dünyanın inkşaf etmiş ölkələrinin əksəriyyətində tətbiq edilir. Qiymətli kağızların saxlanılmasına görə əldə edilən gəlirdən, adətən, fiziki şəxslər gəlir vergisi, hüquqi şəxslər isə korporativ vergi ödəyirlər. Bir çox ölkələrdə qiymətli kağızların dəyərinin artımından vergi əmlak vergisi şəklində tutulur.

Qiymətli kağızlardan dividend şəklində əldə edilən gəlirlərdən verginin tutulması bir sıra mütəxəssislər tərəfindən mübahisə predmetinə çevrilir. Onların fikrincə, dividenddən verginin tutulması zamanı ikiqat vergitutma halına yol verilir. Belə ki, eyni vəsaitin birinci dəfə vergiyə cəlb olunması dvidendin mənbəyi olan mənfəətdən mənfəət vergisi tutularkən baş verir, ikinci dəfə isə həmin vəsait dividend şəklində verilərkən vergiyə məruz qalır. Çox vaxt bu problemin həlli yollarından biri kimi, dividenddən tutulan verginin dərəcəsi digər növ gəlirlərdən tutulan vergi dərəcəsindən aşağı müəyyən olunur. Eyni zamanda, bir çox ölkələr belə qərara gəlmişlər ki, kapitaldan əldə edilən gəlirdən tutulan vergilər üzrə yüksək dərəcələrin tətbiqi müasir iqtisadiyyat üçün sərfəli deyildir. Fransa və Lüksemburqda fiziki şəxslərin əldə etdikləri dividendən tutulan verginin dərəcəsi 50 faiz aşağı salınmışdır. Azərbaycanda isə dividend şəklində əldə olunan gəlirdən vergi 10 faiz dərəcə ilə tutulur.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, qiymətli kağızlardan əldə edilən gəlirlərin vergiyə cəlb olunması forması ayrı-ayrı ölkələrdə müxtəlif olsa da, bu sahədə vergitutma, əsasən, qiymətli kağızlara qoyulan investisiyalar üçün əlverişli vergi mühitinin yaradılmasını nəzərdə tutur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi güzəşti

***Mülkiyyətimdə əmlakla birlikdə torpaq sahəsi də var. Pensiyaçıyam və himayəmdə dörd nəfər var. Qanunvericilikdə torpaq və əmlak vergisi hesablanarkən mənim kimi şəxslərə hansı güzəştlər nəzərdə tutulub?***

Vergi Məcəlləsinin (Məcəllə) 196-cı maddəsinə əsasən, Məcəllənin 197-ci maddəsində göstərilən vergitutma obyektləri olan fiziki şəxslər və müəssisələr əmlak vergisinin ödəyiciləridir. Məcəllənin 197.1.1-ci maddəsinə müvafiq olaraq, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri (bundan sonra bina adlandırılacaq), həmçinin yerindən və rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri, istifadə edilib-edilməməsindən asılı olmayaraq, əmlak vergisi üzrə vergitutma obyektləridir.

Məcəllənin 199.3-cü maddəsində qeyd edilmişdir ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, 102.2-ci maddədə göstərilən (Milli qəhrəmanlar; Sovet İttifaqı və Sosialist əməyi qəhrəmanları; müharibə əlilləri; həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri); 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər; qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslər; Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər) şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat azaldılır.

Məcəllənin 204-cü maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir. 205-ci maddədə isə göstərilir ki, fiziki şəxslərin və müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır.

Məcəllənin 207.2-ci maddəsində nəzərdə tutulduğu kimi, 102.2-ci maddədə göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

Vergi Məcəlləsinin qeyd edilən maddələrinin müddəalarından göründüyü kimi, pensiyaçılar üçün yalnız əmlak vergisi üzrə güzəşt nəzərdə tutulmuşdur: icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, pensiyaçıların binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat azaldılır.

Torpaq vergisi üzrə isə vergi güzəşti Məcəllənin 102.2-ci maddəsində sadalanan şəxslər üçün nəzərdə tutulmuşdur və həmin şəxslərin sırasında pensiyaçılar yoxdur.

Himayəsində dörd azyaşlı uşağı olanlar üçün nə torpaq vergisi, nə də əmlak vergisi üzrə güzəşt nəzərdə tutulmamışdır. Həmin şəxslər üçün yalnız gəlir vergisi üzrə güzəşt müəyyən edilmişdir. Məcəllənin 102.5-ci maddəsində qeyd edilmişdir ki, qohumluq dərəcəsindən asılı olmayaraq, himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

# Maliyyə ombudsmanı institutunun yaradılması təklif olunur

Respublikanın dinamik sosial-iqtisadi inkişafı əhalinin işgüzar fəallığının əsaslı dərəcədə yüksəlməsinə, xüsusən də maliyyə sektorunda müxtəlif əməliyyatların genişlənməsinə səbəb olub. Bu hərəkətlilik fonunda bəzən müqavilə əsasında maliyyə xidmətlərindən istifadə edən vətəndaşlar qanuni hüquq və mənafelərini qorumaqda çətinlik çəkirlər. Maliyyə sektoru təmsilçilərinin bir çox hallarda lombard, sığorta və nağdsız ödəniş şirkətləri, habelə bəzi banklarla bağlı narazılıqlarının əsasında da məhz bu amillər dayanır.

*Maliyyə ombudsmanının məqsədi maliyyə təşkilatlarının müştərilərinin hüquqlarını qorumaq, ortaya çıxmış problemlərin məhkəmədənkənar həllinə nail olmaqdır*

Hazırda bu cür mübahisələrin məhkəməyə qədər sivil və çevik həllinə imkan verən dövlət təsisatının yaradılması yeni dövrün obyektiv tələbatı kimi meydana çıxır. Söhbət bir sıra ölkələrin praktikasında mövcud olan maliyyə ombudsmanı təsisatından və beləliklə, yaranmış maliyyə mübahisələri zamanı vətəndaşlara operativ hüquqi yardım və səmərəli müdafiə mexanizmlərinin formalaşdırılmasından gedir. Yeri gəlmişkən, bu məsələ ötən il Vergilər Nazirliyində təsdiqlənərək icrasına başlanılmış «2013-2020-ci illərdə vergi sisteminin inkişafı strategiyası»nda öz əksini tapıb. Nazirlik məsələnin aktuallığını və əhəmiyyətini dəyərləndirərək vergi ödəyicilərinə xidmət sahəsində daha bir kreativ yeniliyin reallaşdırılmasını özünün fəaliyyət prioritetlərinə daxil edib.

«İqtisadi Təşəbbüslərə Yardım» İctimai Birliyinin sədri Samir Əliyev hesab edir ki, maliyyə sektorunda istehlakçıların hüquqlarının qorunması, haqsız tələb və iddialarla üzləşən vətəndaşlara operativ hüquqi yardımın göstərilməsi baxımından maliyyə ombudsmanı institutunun yaradılması məqsədəuyğun addım sayıla bilər. Bir sıra uzaq və yaxın ölkələrin təcrübəsində bu təsisatın əhəmiyyəti və işləkliyi tam təsdiqini tapıb: «Hazırda respublikada maliyyə xidmətlərindən istifadə edən müştərilərin hüquqlarını qoruyan hansısa mexanizm və müstəqil institut yoxdur. Maliyyə ombudsmanının məqsədi maliyyə təşkilatlarının müştərilərinin hüquqlarını qorumaq, ortaya çıxmış problemlərin məhkəmədənkənar həllinə nail olmaqdır. Bu institut müştərilərə pulsuz xidmət göstərməklə yanaşı, yaranmış mübahisələri ilkin mərhələdə həll edə bilər».

Ekspert hesab edir ki, maliyyə ombudsmanı institutunun yaradılması iqtisadi mübahisələrlə bağlı məhkəməyə müraciət edən vətəndaşların sayının azalmasına gətirib çıxaracaq: «Maliyyə ombudsmanının üstünlüyü ondadır ki, müştəriyə məhkəməyə çəkiləcək xərcə qənaət etmək imkanı verilir. Eyni zamanda, məsələyə baxılması müddəti də məhkəmə ilə müqayisədə qısadır. Vətəndaşların maliyyə hüquqlarını müdafiə edən ilk maliyyə müvəkkili 1992-ci ildə Almaniyada yaradılıb. Hazırda bir çox ölkələrdə (Fransa, Böyük Britaniya, Danimarka, İsveç, İrlandiya, Pakistan, CAR və s.) bu qurum fəaliyyət göstərir. MDB ölkələri arasında Rusiyada mövcud olan belə bir institutun Ukraynada da yaradılması məlum siyasi böhran səbəbindən yubanıb. Qazaxıstanda 2011-ci ildən bank ombudsmanı institutu fəaliyyət göstərir, Gürcüstanda isə sığorta ombudsmanı institutunun yaradılması planlaşdırılır. Bank, sığorta və investisiya sahəsində maliyyə qurumları ilə maliyyə xidmətlərinin istehlakçıları arasında yaranmış mübahisələri tənzimləyən çevik və işlək mexanizm olan maliyyə ombudsmanının fəaliyyəti bəzi ölkələrdə yalnız bank, bəzilərində sığorta, digərlərində isə bütün maliyyə sektorunu əhatə edir».

Hazırda elə bir ailə, elə bir vətəndaş yoxdur ki, maliyyə sektorunun xidmətlərinə müraciət etməsin. Kimisi gəlirinin bir hissəsini banklara əmanət edir, kimisi banklardan kredit götürür, bəziləri maşınını və evini sığortalayırlar. S.Əliyevin sözlərinə görə, öhdəliklərin yerinə yetirilməsi zamanı maliyyə qurumları qabağa düşərək problemi öz xeyirlərinə həll etməyə çalışırla: «Bir çox hallarda müştəri hüququ pozulmuş vəziyyətə düşür. Məsələn, bəzi banklar kredit şərtlərini istədikləri kimi müəyyənləşdirir, müqavilələrdə daha çox öz hüquqlarını qabardırlar. Müştərilərin isə öhdəlikləri daha çox önə çəkilir. Gecikdirilən kreditlərə ağlasığmaz cərimələr hesablanır. Banklar öz reklam çarxlarında əhaliyə nominal deyil, effektiv faiz dərəcələri barədə məlumat verir, bununla da əhalini cəlb etməyə çalışırlar. Krediti vaxtından əvvəl qaytarmaq istəyən müştəriyə cərimə tətbiq edilməsi hallarına da rast gəlinir».

Ekspertin müşahidələrinə əsasən, əhalinin hüquqlarının pozulması halları daha çox lombardlarda baş verir: «Son dövrlər göbələk kimi artan lombardlar insanların ən çox aldadıldığı məkana çevrilib. Onların verdikləri kreditlərin baha olması azmış kimi, insanların aldadılması halları da kifayət qədərdir. Bəzi hallarda müştəriyə kredit verəndə müqavilələr bağlanmır, girov qismində qoyulmuş əmanətin dəyərindən dəfələrlə az məbləğdə kredit verilir, krediti vaxtında ödəyən insanlar bir sıra hallarda girov qoyduqları əmanəti geri ala bilmirlər. Sığorta sektorunda da vəziyyət ürəkaçan deyil. İnsanlar sığorta hadisəsi baş verəndə sığorta ödənişi almaqda xeyli əziyyət çəkirlər. Bu halda vətəndaş kimə müraciət edəcəyini, hüquqlarının hansı qurum tərəfindən qorunacağını bilmir. Düzdür, Mərkəzi Bankın göstərişi ilə bankların nəzdində istehlakçıların şikayətini araşdıran şöbələr yaradılmağa başlayıb. Ancaq şikayətləri araşdıran müstəqil qurumun olması daha məqsədəuyğundur».

Maliyyə Nazirliyinin Dövlət Sosial Sığorta Nəzarəti Xidmətinin rəhbəri Namiq Xəlilov da belə bir institutun yaradılmasını mümkün hesab edir. Onun sözlərinə görə, hazırda istehlakçılar maliyyə sektorundakı problemlərlə bağı Dövlət Sığorta Nəzarəti Xidmətinə və Azərbaycan Mərkəzi Bankına, eləcə də məhkəmə instansiyalarına müraciət edir. Tənzimləyici orqanlar isə heç də bütün hallarda yaranan problemi həll edə bilmirlər: «Bəzən şikayəti araşdırmaq bizim səlahiyyətlərimizə aid olmur, elə şikayətlər var ki, burada ayrıca araşdırma, ekspertiza və s. tələb edilir. Belə vəziyyətlərdə şikayətçiyə məhkəməyə müraciət etməyi məsləhət görürük. Lakin bəzən şikayətçilər məbləğlər kiçik olduğuna görə, vaxt itkisi və əlavə məsrəflərlə üzləşməmək üçün heç məhkəməyə də müraciət etmirlər. Buna görə də inkişaf etmiş ölkələrdə maliyyə sektoru üçün ayrıca ombudsman institutu yaradılır. Beynəlxalq təcrübəyə görə, maliyyə ombudsmanı xidmətləri vətəndaşlara pulsuz göstərilir».

Xidmət rəhbəri qeyd edib ki, maliyyə ombudsmanının işində də müəyyən məhdudiyyətlər var: «Şikayətçi ombudsmana müraciət etməzdən əvvəl şikayət etdiyi sığorta şirkətinin rəhbərliyindən cavab almalıdır. Bundan başqa, onlar yalnız fiziki şəxslərin şikayətlərini araşdırır, eləcə də araşdırılan iddianın məbləği müəyyən hədlə məhdudlaşdırılır. Daha iri məbləğli mübahisələr isə məhkəmələrdə həll olunur».

**S.MUSTAFAYEV**

# Qazaxıstanda Azərbaycan təcrübəsi tətbiq edilir

*«Vergi administrasiyalarında biznes proseslərinin idarə edilməsinə müasir yanaşma» mövzusuna həsr olunmuş 7-ci Astana iqtisadi forumunda Azərbaycan da daxil olmaqla Qazaxıstan, Belarus, Litva, Latviya, İndoneziya, İran, Türkiyə və s. ölkələrdən nümayəndələr iştirak etmişlər.*

Forumda çıxış edən Qazaxıstan Respublikasının Vergi Komitəsinin sədri Anuar Jumadildayev «Vergi administrasiyalarının islahatı» layihəsi barədə məlumat vermişdir. Bildirilmişdir ki, layihə institusional inkişaf, əməliyyat inkişafı, informasiya texnologiyaları infrastrukturunun inkişafı və idarəetmənin inkişafını əhatə edən dörd komponentdən ibarətdir. İcra müddəti 2011-2016-cı illəri əhatə edən layihə çərçivəsində əldə olunan nailiyyətlərdən biri Azərbaycan təcrübəsinə əsaslanaraq ƏDV depozit hesabının tətbiqi barədə qərarın qəbul edilməsi olub. Komitə sədri Qazaxıstan Respublikasının bu sahədə kifayət qədər araşdırma apardığını qeyd edərək, bu sistemin tətbiqinin ƏDV daxilolmaların artırılması və vergidən yayınma hallarının qarşısının alınmasında uğurlu nəticə verəcəyinə əminliyini bildirmişdir.

Qeyd edək ki, ötən ilin sentyabrında Qazaxıstan nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdu. Səfərin məqsədi Azərbaycan Vergilər Nazirliyi ilə qarşılıqlı faydalı əməkdaşlığı, təcrübə mübadiləsini genişləndirmək, habelə tətbiq edilən innovativ texnologiyalarla yaxından tanış olmaq idi. Səfər çərçivəsində ƏDV depozit hesabı barədə məlumatlanan qonaqlar bu sistemlə yaxından tanış olduqdan sonra onun öz ölkələrində tətbiqinə qərar veriblər.

Onu da əlavə edək ki, ƏDV depozit hesabı sistemi 2008-ci ildən bəri yalnız ölkəmizdə tətbiq edilir və onun vasitəsilə ƏDV-nin ödənilməsindən yayınmaya, həmçinin ƏDV-nin əvəzləşdirilməsi üzrə qeyri-qanuni tələblərə qarşı yeni və olduqca səmərəli mexanizm həyata keçirilir.

Astana forumu çərçivəsində keçirilən sessiyalar zamanı «Biznes proseslərinin daha effektli idarəsini təmin edən alət və metodlar», «Vergi administrasiyalarında biznes proseslərinin dəyişikliklərin və innovasiyaların tətbiqi zamanı yaranan problem və çətinliklər», «Vergi inzibatçılığına yeni yanaşma» mövzuları ətrafında müzakirələr aparılmışdır. Diskussiyalarda Azərbaycan Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Həmid Zeynalov iştirak etmişdir.

# Yoxlamalarla bağlı yeni qaydalar təsdiqlənib



*Nazirlər Kabineti «Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri»ni təsdiq etmişdir.*

Qaydalar sahibkarlıq sahəsində aparılan yoxlamalar zamanı məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin əvəzinin sahibkar tərəfindən ödənilməsi qaydalarını və müddətlərini müəyyən edir. Yoxlama zamanı götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərinin dəyişilməz saxlanılması, daşınması, tədqiqinin (sınağının) aparılması, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər, həmçinin məhsulun tədqiqi (sınağı) barədə yoxlayıcı orqanın qərarının nəticəsi olaraq yaranan bütün digər xərclər yoxlayıcı orqanın hesabına ödənilir. Əgər məhsul nümunələrinin tədqiqinin (sınağının) nəticələri məhsulun müəyyən edilmiş tələblərə uyğun olmadığını və uyğunsuzluğun insan həyatına və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaratdığını və ya mühüm zərər vurduğunu müəyyən edərsə, yoxlayıcı orqanın çəkdiyi xərclərin əvəzi sahibkar tərəfindən aşağıdakı hallar istisna olunmaqla ödənilməlidir:

- xərclərin yoxlayıcı orqan tərəfindən faktiki olaraq çəkilmədiyi;
- xərclərin çəkilməsi barədə sənədli təsdiqləmənin olmadığı;
- xərclərin yoxlayıcı orqan tərəfindən məhsul nümunələrinin qanunsuz götürülməsi, o cümlədən «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanunla müəyyən edilmiş qaydalara əməl edilmədən götürülməsi ilə əlaqədar çəkilmədiyi hallar.

Yoxlayıcı orqan götürülmüş məhsul nümunələrinin tədqiqinin (sınağının) nəticələri barədə protokolu aldıqdan sonra məhsulu müəyyən tələblərə uyğun olmayan sahibkar tərəfindən xərclərin əvəzinin ödənilməsi haqqında 5 iş günü müddətində qərar qəbul edir. Qərar yoxlayıcı orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanaraq, 3 iş günü müddətində sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Sahibkar qərarı aldığı vaxtdan 30 gün müddətində xərclərin əvəzini dövlət büdcəsinə köçürməlidir. Xərclərin əvəzi bu müddətdə ödənilmədikdə, yoxlayıcı orqan ödəmənin təmin edilməsi barədə sahibkara yazılı xəbərdarlıq təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Xəbərdarlığın verildiyi gündən sonrakı 10 gün müddətində sahibkar tərəfindən ödəmə həyata keçirilmədikdə, yoxlayıcı orqan tələbin məcburi icraya yönəldilməsi haqqında qərar qəbul edir.

**Rəşad SADIQOV**

# Bütün gömrük ödənişləri nağdsız qaydada aparılacaq

*Dünyada gedən qloballaşma prosesi şəraitində Azərbaycan iqtisadiyyatının dünya iqtisadi məkanına inteqrasiya olunmasında, ölkənin iqtisadi təhlükəsizliyinin və daxili bazarın qorunmasında gömrük siyasətinin rolu əhəmiyyətli dərəcədə artır.*

Ölkənin ildən-ilə iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının genişlənməsi, idxal-ixrac əməliyyatlarının həcminin artması və beynəlxalq iqtisadi sistemə inteqrasiya prosesinin dərinləşməsi çevik gömrük siyasətinin aparılmasını zəruri edir. Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev bildirib ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması, özəl bölmədə ən qabaqcıl texnologiyaların tətbiqi və sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması istiqamətində islahatlar davam etdirilir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin «bir pəncərə» prinsipinə uyğun olaraq elektron qeydiyyatının təkmilləşdirilməsi bu prosesin mühüm hissəsidir. E-xidmətlərin əhatəsini genişləndirən gömrük orqanları idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün bir sıra yeniliklər etməyi planlaşdırır. Bisneslə məşğul olan şəxslərin işini asanlaşdırmaq məqsədilə yaxın vaxtlarda gömrük bəyannamələrinin «ASAN xidmət» mərkəzlərində doldurulması və gömrük orqanlarına elektron yolla göndərilməsi mümkün olacaq. Sahibkarlar yalnız müvafiq sənədləri «ASAN xidmət» mərkəzlərinə təqdim etməklə, bəyannamənin təqdim olunmasını elektron qaydada həyata keçirəcəklər. Ticarət sahəsində digər prosedurların da sadələşdiriləcəyini bildirən komitə sədri hazırda dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiq olunduğunu, bu sahədə islahatların davam etdirildiyini diqqətə çatdırıb. Bununla bağlı bir sıra normativ-hüquqi aktlara dəyişiklik edilməsi işləri yekunlaşıb və idxal-ixrac zamanı gömrük nəzarətinin həyata keçirilməsi üçün cəmi 2 sənəd (nəqliyyat sənədi və bəyannamə) tələb olunacaq. Bununla da tələb olunan sənədlərin sayı idxalda 11-dən 2-yə, ixracda isə 8-dən 2-yə endiriləcəkdir. Ümumilikdə isə tələb olunan sənədlərin sayı 19-dan 4-ə qədər azalacaq. Müasir İKT imkanlarından istifadə edilməklə gömrük sistemində Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin tətbiqinin təkmilləşdirilməsi də əsas prioritetlərdən hesab olunur.




*İdxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün bir sıra yeniliklər tətbiq olunacaq*

Bu istiqamətdə həyata keçirilən tədbirlər bizneslə məşğul olan şəxslər üçün daha az vaxt və minimum xərc sərf etməklə fəaliyyətlərinə geniş imkanlar yaradacaq, eyni zamanda özəl bölmənin inkişafına təkan verəcək. Bu tədbirlər Azərbaycanın xarici investisiyalar üçün cəlbediciliyini artırmaqla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən iqtisadi sahədə hazırlanan hesabatlarda da ölkəmizin mövqeyinin yaxşılaşmasına şərait yaradacaq.

Aparılan islahat tədbirləri kontekstində qarşıdakı 4 ildə gömrük siyasətinin əsas prioritetləri kimi gömrük idarəçiliyinin təkmilləşdirilməsi və şəffaflığa əsaslanan sistemin inkişaf etdirilməsi, ticarətin asanlaşdırılması və gömrük-tarif siyasətinin təkmilləşdirilməsi, bütün gömrük ödənişlərinin nağdsız qaydada aparılması, gömrük hüquqpozmaları ilə mübarizədə mühüm rol oynayan gömrük nəzarəti metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması və prosedurlarının avtomatlaşdırılması nəzərdə tutulur. Müasir texnologiyalardan və avadanlıqdan istifadə etməklə gömrük işi sahəsində risklərin idarə olunması sisteminin təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi və insan resurslarından daha səmərəli istifadə əsas prioritetlər kimi müəyyən olunub.

Azərbaycanın Avropa İttifaqı ilə sadələşdirilmiş viza rejimi ilə bağlı imzaladığı sazişin tələblərinə uyğun olaraq, sərhəd-keçid məntəqələrinin təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin həlli istiqamətində də işlər aparılır. Sərhədlərin təhlükəsizliyinin icrası üçün vacib olan ilkin şərtlərdən biri maşınla oxunan biometrik pasportların tətbiqinə başlanmasını nəzərdə tutur. Artıq ölkədə ötən ilin dekabrından biometrik pasportların verilməsinə başlanıb. Eyni zamanda, biometrik identifikasiyanı tənzimləyən yeni qanunlar qəbul edilib, dövlətin miqrasiya proseslərinə nəzarəti gücləndirilib, sərhədkeçmə sənədlərinin fərdiləşdirilməsi üzrə informasiya resursları formalaşdırılıb.

Avropa İttifaqı ölkələrinə idxal-ixrac əməliyyatları zamanı sənədlərin sadələşdirilməsi, sənədləşmənin vahid pəncərə üzrə həyata keçirilməsi ilə bağlı görülməkdə olan işlərin əsas elementlərdən biri xarici şirkətlərin Azərbaycana cəlb etdiyi işçi qüvvəsi üçün tələb olunan sənədlərin sayının azaldılması, iş icazələri ilə bağlı qaydaların təkmilləşdirilməsi, iş adamları üçün banklar tərəfindən depozit məbləğlərinin ləğvinin nəzərdə tutulmasıdır. Qarşılıqlı xarakter daşıdığından, bu qaydalar Azərbaycanın fərdi sahibkarlarının Avropa ölkələrindəki biznes fəaliyyətinə də tətbiq olunacaq.

**E.CƏFƏRLİ**

# Müasir Azərbaycan: Heydər Əliyevin şah əsəri

**Əvvəli 1-ci səhifədə**

Bütün bunların həyata keçirilməsində xalqının dəstəyinə arxalanan ulu öndər hələ 1993-cü il oktyabrın 10-da keçirilmiş prezidentin andiçmə mərasimində qeyd edirdi: «Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm».

Beləliklə, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya dəvət olunması qardaş qırğınının, ölkənin parçalanmaq təhlükəsinin qarşısını aldı. Azərbaycan ağır fəlakətlərdən, təhlükələrdən qurtuldu. Ölkədə Qurtuluş Hərəkatı uğurla başa çatdı və 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə ölkə tarixinə Milli Qurtuluş Günü kimi möhtəşəm gün qızıl hərflərlə yazıldı. XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlayan qurtuluş məfkurəsi ilk növbədə Azərbaycanı faciələrdən xilas etməklə yanaşı, ölkəmizin sürətli dinamik inkişafının da çox etibarlı təməlini yaratdı. Qurtuluş məfkurəsi, qurtuluşdan başlayan siyasət bu gün də Azərbaycanın, hər bir vətəndaşın, ailənin həyatındadır. 19 il əvvəl parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətinə çevrildi.

Milli Qurtuluş Gününün siyasi-ictimai əhəmiyyətini qeyd edən ulu öndərin siyasi varisi, Prezident İlham Əliyev 1993-cü ilin iyunun 15-də müstəqil Azərbaycan tarixində yeni səhifə açıldığını bildirmişdir: «O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan ümummilli lider Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, onun əməyidir və xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk».

«Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat və sahibkarlıq yoludur», - deyən ümummilli liderin gərgin əməyi nəticəsində iqtisadiyyatın keyfiyyətcə yeni mərhələsinin başlanması, özəl sektorun sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirilməsi, güclü sahibkarlar təbəqəsinin formalaşması, bu məqsədlə 1997-2003-cü illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatının yaradılması, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazasının formalaşdırılması, investisiyaların təşviqi üçün respublikada münbit şəraitin təmin olunması, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə edilməsi, xarici kapital qoyuluşunun enerji sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına yönəldilməsi ulu öndərin misilsiz xidmətlərindəndir.

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin yaratdığı zəngin idarəçilik institutunun möhkəm dayaqları üzərində yeni dövrün reallıqları nəzərə alınmaqla çevik, unikal, modern bir idarəetmə platforması formalaşdırıb*

Ulu öndərin əsasını qoyduğu milli tərəqqi doktrinasını yeni dövrün meyarlarına uyğun inkişaf etdirən Prezident İlham Əliyev Azərbaycanın keçid iqtisadiyyatını tamamilə arxada qoymasına nail olub. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin yaratdığı zəngin idarəçilik institutunun möhkəm dayaqları üzərində yeni dövrün reallıqları nəzərə alınmaqla çevik, unikal, modern bir idarəetmə platforması formalaşdırıb.

Artıq Azərbaycan regionda mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirərək dünya iqtisadiyyatına sıx inteqrasiya proseslərini sürətləndirməklə, eyni zamanda, tərəfdaş ölkələrin enerji təminatında mühüm yer tutaraq onların yüksək etimadını qazanmaqla beynəlxalq aləmdə nüfuz sahibinə çevrilmişdir. Bu illər ərzində ölkəmizin inkişaf baxımından yeni mərhələyə qədəm qoyması və iqtisadiyyatın strukturunda keyfiyyət dəyişikliklərinin baş verməsi Azərbaycanın ümumi inkişafını daha da sürətləndirib, büdcənin potensial maliyyə tutumunu genişləndirib.

«Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı dünya miqyasında bir fenomendir», - deyən Prezident İlham Əliyev respublikamızın yeni innovativ inkişaf mərhələsinə qədəm qoymasına nail olub. Hazırda yeni əsrin ikinci onilliyinə yeni inkişaf meyarları ilə daxil olan ölkəmizin qarşısında müasir çağırışlar meydana çıxıb. Bu çağırışlar Azərbaycanda qeyri-neft sektorunun iqtisadiyyatda dominantlığını və çoxşaxəli iqtisadiyyatın sektorial davamlılığını təmin etmək, innovasiyaların tətbiqi dairəsini genişləndirməkdən ibarətdir.

**Anar ƏLİYEV**

# OECD tərəfindən seminar keçirilmişdir

*İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində «Qeyri-maddi aktivlərlə bağlı əməliyyatların aparılması və biznesin yenidən təşkili zamanı transfert qiymətqoymanın tətbiqi məsələləri» mövzusunda seminar keçirilmişdir.*

Tədbirdə Azərbaycan da daxil olmaqla Rusiya Federasiyasının, Belarusun, Qazaxıstanın, Qırğızıstanın və Tacikistanın vergi xidməti orqanlarının 50-dən çox nümayəndəsi iştirak etmişdir.

Seminarın əsas məqsədi şirkət daxilində biznesin yenidən təşkili prosesləri həyata keçirilərkən və qarşılıqlı surətdə asılı olan şəxslər arasında qeyri-maddi aktivlərin təqdim olunması və ya istifadəyə verilməsi ilə bağlı əməliyyatlar aparılarkən transfert qiymətqoymanın tətbiqi xüsusiyyətlərinin izah edilməsindən və bunlarla bağlı müxtəlif məzmunlu praktiki misallara baxılmasından ibarət olmuşdur.

Seminar ərzində OECD-nin transfert qiymətqoyma sahəsində müəyyən etdiyi qaydalara uyğun olaraq, bu sahədə «uzadılmış əl prinsipi»nin tətbiqi, qiymətqoymanın metodları barəsində ümumi məlumat verilmiş, biznesin yenidən qurulmasına, qarşılıqlı surətdə asılı olan şəxslər arasında qeyri-maddi aktivlərlə bağlı əməliyyatların aparılamsına dair misallar gətirilərək iştirakçılara geniş izahlar verilmişdir.

Tədbirin gedişində mövzu ətrafında geniş diskussiyalar aparılmış və iştirakçılar praktiki misallarla çıxış edərək, onların həlli yolları barədə təlimçilərdən müvafiq tövsiyələr almışlar.

Seminarda Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin Vergi araşdırmaları və monitorinq şöbəsinin rəisi Yunis Quliyev iştirak etmişdir.

# Vətəndaşlara yerlərdə xidmət göstərilir

## *İndiyədək mobil ofislərin xidmətlərindən 1600-ə yaxın insan faydalanıb*

*Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın qeydiyyatı sahəsində sosial məmnunluğun təmin olunması, vətəndaşlara göstərilən xidmətlərdə rahatlığın artırılması və sosial amillərin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır.*



Bu ilin aprel ayından başlayaraq daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı ilə bağlı mobil ofislər yaradılıb. Məqsəd göstərilən xidmətlərin vətəndaşlara daha rahat və əlverişli üsullarla çatdırılması, bu sahədə hökm sürən neqativ halların qarşısının alınması, eləcə də əhalinin dövlət qurumlarına etimadının yüksəldilməsidir. Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmətlər mobil ofislər vasitəsilə əlilliyi olan, ahıl, sağlamlıq imkanları məhdud insanlar, hərəkət çətinliyi səbəbindən ərazi qeydiyyat idarələrinə gələ bilməyən vətəndaşlara göstərilir. Daşınmaz əmlakın qeydiyyatı üçün sənədlərin qəbulu, həmin sənədlərin qanunauyğunluğunun yerindəcə yoxlanılması, növbəti prosedurlar barədə ətraflı məlumatın çatdırılması və daşınmaz əmlakın qeydiyyatı ilə bağlı vətəndaşlara zəruri hüquqi məsləhətlərin verilməsi həmin xidmətlərə aiddir. Bununla yanaşı, komitənin mobil ofisləri vasitəsilə daşınmaz əmlakın qeydiyyatı prosesində texniki məsələlərin həlli, yerində baxış və mühəndislik işlərinin həyata keçirilməsi, daşınmaz əmlakın müayinəsi, ərazilərdə əmlakların texniki plan-ölçüləri və çöl-ölçmə işlərinin aparılması həyata keçirilir. Bütün bunlar daşınmaz əmlakın qeydiyyatının daha çevik, sürətli və vaxta qənaət etməklə təmin olunmasına səbəb olmaqdadır.

Ünvanlarda qeydiyyat xidmətləri xüsusi nəqliyyat vasitələri ilə həyata keçirilir. Bu nəqliyyat vasitələri müasir informasiya-kommunikasiya sistemi və yeni avadanlıqlarla təchiz edilib. Vətəndaşlar zəruri sənədləri xüsusi nümayəndəyə təqdim edirlər. Nümayəndə sənədləri yerindəcə yoxlayıb müvafiq istiqamət və məsləhətlər verir.

İndiyədək daxil olan müraciətlər əsasında Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Yevlax şəhərlərində, Şəmkir, Göygöl, Daşkəsən, Samux, Gədəbəy, Ağdaş, Qax, Balakən, Ağstafa, Qazax rayonlarında, həmçinin bu şəhər və rayonların mərkəzdən uzaq kənd və qəsəbələrində mobil ofislər vasitəsilə 1600-ə yaxın vətəndaşa qeydiyyat xidmətləri göstərilib.

İyun ayının 3-dən başlayaraq 29-dək mobil ofis vasitəsilə Göyçay, Kürdəmir, Zərdab, Salyan, Sabirabad, Saatlı, Neftçala, Hacıqabul, Ağcabədi, Füzuli, İmişli, Tərtər, Ağdam, Naftalan və Goranboy rayonlarından olan vətəndaşlara qeydiyyat xidmətləri göstəriləcək.

**AYTƏN**

# Əmək bazarı ilə bağlı yeni strategiyanın əsas istiqamətləri

*Beynəlxalq Əmək Təşkilatının (BƏT) baş direktoru Qay Rayder Azərbaycanda əmək bazarının tənzimlənməsinə və yeni əmək strategiyasının hazırlanmasına dəstək göstərəcəklərini bildirib.*

Cənab Q.Rayder deyib ki, Azərbaycan əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində BƏT-lə fəal əməkdaşlıq edir və indiyədək əməyin mühafizəsi ilə bağlı qanunvericilik aktları bu qurumun konvensiyalarından irəli gələn prinsiplərə uyğunlaşdırılıb. Hazırda müasir iqtisadi reallıqlar və məşğulluq sahəsində meydana çıxan problemlər əmək bazarına nəzarətin yeni mexanizmlərinin hazırlanmasını zəruri edir. Bu sahədə BƏT-in tövsiyələri Azərbaycanda əməyin mühafizəsi sahəsində səmərəli fəaliyyət mexanizminin qurulmasına öz töhfəsini verə bilər.

Təşkilat qeyri-rəsmi məşğulluğa qarşı mübarizə vasitələrinin tətbiqi, işaxtaranların iş yerləri ilə təmin olunması, sosial təminat sisteminin tənzimlənməsi, əmək yarmarkalarının təşkili, gənclər üçün iş yerlərinin yaradılması və digər sahələrdə də öz köməyini təklif edib. Minimum əməkhaqqı siyasətinin inkişaf etdirilməsi, əmək bazarı ehtiyaclarının proqnozlaşdırılması, əməyin mühafizəsi və təhlükəsizliyi, digər sahələrdə də BƏT-lə əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, əmək bazarı ilə bağlı yeni hazırlanan strategiyada BƏT-in tövsiyələri nəzərə alınacaq. Təşkilatın təcrübəsindən istifadə olunaraq əmək və məşğulluq sahəsində milli informasiya sistemi yaradılacaq, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sistemi qurulacaq, qeyri-rəsmi məşğulluğun qarşısının alınması üçün ciddi tədbirlər görüləcəkdir.

Əmək bazarı ilə bağlı yeni strategiyanın əsas istiqamətlərindən danışan S.Müslümov bildirib ki, sənəddə əhalinin məşğulluğunun inkişafına təsir edən investisiya mühitinin yaradılmasına, vergi, gömrük, təhsil və digər müvafiq sahələrlə bağlı siyasətin təkmilləşdirilməsinə, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən siyasi prioritetlər müəyyən ediləcək. Müəssisə və təşkilatlarda kollektiv sazişlərin və müqavilələrin bağlanmasına dövlət nəzarətinin gücləndirilməsi, həmin müqavilələrdə işçilərin sosial müdafiəsinin əsas götürülməsi, sosial tərəfdaşlığın səmərəliliyinin artırılması məqsədi ilə sosial və iqtisadi məsələlər üzrə daimi fəaliyyət göstərən üçtərəfli komissiyanın yaradılması qarşıya vacib məqsəd kimi qoyulub. Yaxın illər ərzində əmək bazarında ədalətli rəqabət mühitinin formalaşdırılması, təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması, qeyri-rəsmi məşğulluğun qarşısının alınması, işsizlərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsinə kömək edən xüsusi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa, yeni ixtisas və ixtisaslaşma təsnifatının hazırlanması, iqtisadiyyatın müxtəlif sahələri üzrə əhalinin məşğulluğu və boş iş yerləri haqqında məlumatı əhatə etməklə əmək bazarının vəziyyətinə dair analitik-informasiya sisteminin yaradılması da başlıca vəzifələr sırasındadır.



*BƏT-in tövsiyələri Azərbaycanda əməyin mühafizəsi sahəsində səmərəli fəaliyyət mexanizminin qurulmasına öz töhfəsini verə bilər*

Yeni strategiya konsepsiyasında işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin ünvanlı dövlət sosial yardımı sistemi ilə əlaqələndirilməsi, işsizlik müavinətinin minimum məbləğinin artırılması və mərhələlərlə minimum yaşayış standartlarına çatdırılması da nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

## vergi təqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | **1** |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | **8** |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | **15** |
| 16 | 17 | 18 | 19 | **20** | 21 | **22** |
| 23/30 | 24 | 25 | 26 | 27 | 28 | **29** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

20 iyun - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# İƏT ekspertlərinin iclası

*İran İslam Respublikasının paytaxtı Tehran şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin vergi administrasiyalarının ekspertlərinin 1-ci iclası keçirilmişdir.*

İclasda Əfqanıstan, Azərbaycan, İran, Qırğızıstan, Pakistan, Tacikistan və Türkiyənin vergi orqanlarının, habelə İƏT Katibliyinin nümayəndələri iştirak etmişlər.

İclasın əvvəlində iştirakçılar tərəfindən təmsil etdikləri ölkələrin vergi sistemi və vergi qanunvericiliyinə dair qısa məlumat verilmişdir. Sonra İƏT Vergi Administrasiyalarının Əməkdaşlıq Təşkilatının (ECOTAX) Nizamnamə layihəsi, «Vergitutma və digər aidiyyəti məsələlər üzrə Əməkdaşlığa dair Anlaşma Memorandumu» layihəsi və «İƏT üzvü olan ölkələr arasında vergi məsələləri üzrə məlumat mübadiləsinə dair Saziş» layihəsi müzakirə edilmişdir.

Tədbirdə iştirak edən Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin rəis müavini, Beynəlxalq əlaqələr şöbəsinin rəisi İlqar Əkbərli tərəfindən Azərbaycan Respublikasının vergi sistemində aparılan islahatlara dair iştirakçılara məlumat verilmişdir.

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**<u>5-Cİ MƏRHƏLƏ</u>** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın sadə şəkildə tərtib edilməsi ilə bağlı tövsiyələrimiz davam edir.

Qəzetin əvvəlki saylarında verilən tövsiyələrdə qeyd edildi ki, pul vəsaitlərinin hərəkəti haqqında hesabatın (irəlidə «hesabat» adlanır) 2-ci və 3-cü bölməsində müvafiq olaraq investisiya və maliyyələşdirmə fəaliyyəti ilə bağlı dövriyyələr əks etdirilir, 1-ci bölmədə isə müvafiq hesablar üzrə qalıqlardakı dəyişikliklər, düzəlişlər və kassa əməliyyatlarına aid edilməyən daha az digər dövriyyələr əks etdirilir. Burada «dövriyyələr» dedikdə, hesabatın müvafiq bölməsinə aid edilə bilən hər hansı mühasibat hesabına daxil olan (hesab üzrə artan dövriyyə) və mühasibat hesabından çıxan vəsaitlər (hesab üzrə azalan dövriyyə) nəzərdə tutulur.

Məsələn, maliyyələşmə ilə əlaqəli mühasibat hesabı olan 501 №-li «Qısamüddətli bank hesabı»nın kredit dövriyyəsi, yəni alınmış bank kreditinin məbləği maliyyələşmə istiqamətində daxil olan pul vəsaiti kimi hesabatın «Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları» sətrində müsbət rəqəmlə, 501 №-li «Qısamüddətli bank hesabı»nın debet dövriyyəsi, yəni ödənilmiş bank kreditinin məbləği isə maliyyələşmə istiqamətində çıxan pul vəsaiti kimi hesabatın «Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları» sətrində mənfi rəqəmlə əks etdirilir.

Yaxud investisiya ilə əlaqəli mühasibat hesabı olan 181 №-li «Uzunmüddətli paylar və səhmlər hesabı»nın debet dövriyyəsi, yəni alınmış başqa müəssisəyə məxsus səhmlərin və ya payların məbləği investisiya istiqamətində çıxan vəsait kimi hesabatın «Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin xaricolmaları» sətrində mənfi rəqəmlə əks etdirilir, bir şərtlə ki, həmin mədaxil olunan paylar və səhmlərin alış dəyəri tam ödənilsin. Lakin burada diqqət yetirməli məqamlar vardır. Əslində, «Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları» sətrində mənfi rəqəmlə əks etdirilən göstərici satın alınaraq daxil olmuş (Dt 181 - Kr 436, 531, 532 ikili yazılış edilmiş) səhm və payların alış dəyərinin müəssisə tərəfindən ödənilən (Dt 436, 531, 532 - Kr 221, 222, 223, 224, 193, 243, 245 və digər ikili yazılış edilmiş) hissəsi olmalıdır. Hesabatın «Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları» sətrində müsbət rəqəmlə əks etdirilən göstərici (məsələn, Dt 731 - Kr 181) satılan səhm və ya payın alış dəyəri olmaya bilər (söhbət başqa, yəni törəmə və ya asılı müəssisəyə məxsus pay və səhmlərdən gedir). Bu o halda ola bilər ki, səhm və ya pay alış (uçot) dəyərinə bərabər qiymətə satılsın. Bu göstərici satılmış (məsələn, Dt 171, 211 - Kr 611 ikili yazılış edilmiş), yəni müəssisənin mülkiyyətində olan başqa (törəmə, asılı) müəssisəyə məxsus səhm və ya payın satış dəyərinin onun alıcısı tərəfindən ödənilən (Dt 221, 222, 223, 224, 443, 543 - Kr 171, 211 və digər analoji ikili yazılış edilmiş) hissəsi olmalıdır.

Yaxud da investisiya ilə əlaqəli mühasibat hesabı olan 111 №-li «Torpaq, tikili və avadanlıqlar - dəyər hesabı»nın debet dövriyyəsi, yəni daxil olan torpaq, tikili və ya avadanlıqlar içərisində satın alınmışların məbləği investisiya istiqamətində çıxan vəsait kimi hesabatın «Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları» sətrində mənfi rəqəmlə əks etdirilir, bir şərtlə ki, həmin avadanlığın alış dəyəri tam ödənilsin. Burada da maraqlı məqam odur ki, əslində, «Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları» sətrində mənfi rəqəmlə əks etdirilən göstərici alınmış (məsələn, Dt 111 - Kr 431, 531 ikili yazılış edilmiş) avadanlığın dəyərinin müəssisə tərəfindən ödənilən (Dt 531 - Kr 221, 222, 223, 224, 193, 243 və digər ikili yazılış edilmiş) hissəsi olmalıdır. Hesabatın «Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları» sətrində müsbət rəqəmlə əks etdirilən göstərici (Dt 112 - Kr 111, Dt 731 - Kr 111 ikili yazılış edilmiş) satılan avadanlığın qalıq dəyəri olmaya bilər. Bu o halda ola bilər ki, avadanlıq qalıq dəyərinə bərabər qiymətə satılsın. Bu göstərici satılmış (məsələn, Dt 171, 211 - Kr 611 ikili yazılış edilmiş) avadanlığın satış dəyərinin onun alıcısı tərəfindən ödənilən (Dt 221, 222, 223, 224, 443, 543 - Kr 171, 211 və digər analoji ikili yazılış edilmiş) hissəsi olmalıdır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2001-2013 illərdə Azərbaycan Dövlət Neft Fonduna daxil olan vəsaitlərin həcmi **101 mlrd. dollar** təşkil edib.
- Asiya İnkişaf Bankı ötən 15 il ərzində Azərbaycan iqtisadiyyatının bütün sahələri üzrə 20 kredit və 1 qrant layihəsinin maliyyələşdirilməsi üçün **1,64 milyard dollar** dəyərində vəsait ayırmışdır. Həmin vəsaitin **143,0 milyon dolları** özəl sektorda 6 layihənin maliyyələşdirilməsinə yönəldilmiş kreditlər, **14,4 milyon dolları** isə texniki yardım qrantları şəklində verilmişdir.
- May ayında Azərbaycanda daşınmaz əmlakın icbari sığortası üzrə **15 min 637**, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə **343**, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə **28** sığorta müqaviləsi bağlanmışdır.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Fərdi sahibkar Mehman Məmmədovun rəhbəri olduğu «Turan-Babək» MMC müxtəlif dövlət idarələrinin, turizm, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin və digər təşkilatların inzibati binalarında və obyektlərində təmir-tikinti işləri aparmışdır. Bu fəaliyyət sahəsi üzrə göstərdiyi iş və xidmətlərdən əldə etdiyi gəlirlərin həcmi kifayət qədər böyük olsa da, MMC-nin rəhbərliyi vergidən yayınmaq üçün müxtəlif vasitələrə əl atmış, qanundankənar yollar axtarmışdır. Təqdim etdiyi vergi bəyannamələrini və mühasibat sənədlərini bilə-bilə saxtalaşdıran M.Məmmədov hüquqi baxımdan özünə qarşı böyük məsuliyyət və problemlər yaratmışdır.

Vergi orqanları tərəfindən fərdi sahibkar Mehman Məmmədovun vergilər və digər icbari ödənişlərə dair qanunvericiliyə əməl edilməsi vəziyyətinin düzgünlüyünün müəyyənləşdirilməsi məqsədilə keçirilmiş növbəti səyyar vergi yoxlaması zamanı 83842,71 manat məbləğində vergilərin dövlət büdcəsindən yayındırıldığı aşkar olunmuşdur.

Törətdiyi vergi qanunsuzluqları böyük olduğuna görə, onun fəaliyyətini araşdırmaq üçün növbəti vergi yoxlaması keçirilmiş, 1082 manat məbləğində fiziki şəxsin gəlir vergisini dövlət büdcəsinə ödəməkdən yayındığı müəyyən edilmişdir.

Fakt üzrə Mehman Məmmədov barəsində Cinayət Məcəlləsinin 179.3.2 və 313-cü maddələri ilə cinayət işi başlanmışdır. İş üzrə şahid qismində dindirilmiş müxtəlif təşkilat və idarələrin əməkdaşları «Turan-Babək» MMC tərəfindən yerinə yetirilən təmir-tikinti işlərinin qanunamüvafiq şəkildə həyata keçirildiyini, ödənişlərin mühasibat sənədləri əsasında tənzimləndiyini bildirmişlər. Görülən iş və xidmətlərə görə ödənilmiş pul vəsaitlərinin çek və qəbzləri vergi orqanlarına təqdim olunmuş və bununla da sahibkarın vergidən yayınması halları tam sübuta yetirilmişdir. İstintaq zamanı müəyyən edilmiş hallar - iş materialları, o cümlədən təqsirləndirilən şəxsin özü və şahidlərin ifadələri, həmçinin ekspertiza rəyləri və s. dəlillər ilə sahibkarın etdiyi cinayət əməli sübuta yetirilmişdir.

Goranboy Rayon Məhkəməsinin hökmü ilə fərdi sahibkar M.Məmmədov 3 il 9 ay müddətinə azadlıqdan məhrum edilmişdir.

**ELBRUS**

beynəlxalq panoram

# Ukraynada hər kəs depozitlər üzrə vergi ödəyəcək

*Ukrayna Vergi Məcəlləsinin 1 iyul 2014-cü il tarixindən qüvvəyə minəcək maddəsinə əsasən, fiziki şəxslərin depozitlər üzrə əldə etdikləri gəlirlər, məbləğindən asılı olaraq, 15-20% dərəcəsi ilə vergiyə cəlb ediləcək. Gəlirlərin vergi tutulmayan məbləği yaşayış minimumunun 17 misli həcmində — ildə təqribən 20 min qrivna (təxminən 1320 manat) müəyyənləşdirilmişdir.*



Bununla əlaqədar vergilərin hansı qaydada tutulacağı problemi meydana çıxmışdır. Çünki fiziki şəxslər depozitlərini müxtəlif banklarda yerləşdirir və ondan vergi tutulması üçün müxtəlif banklardan məlumat almaq lazımdır ki, bu da bank sirrinin pozulması ilə nəticələnə bilər. Vəziyyətdən çox sadə çıxış yolu tapılmışdır: banklara vergi agenti funksiyaları həvalə edilmiş və bununla da bank sirrinin qorunması təmin edilmişdir. Qiymətli kağızlarla həyata keçirilən əməliyyatlar üzrə gəlirlərdən də verginin bu cür alınması nəzərdə tutulur.

İyulun 1-dək banklar hesablanmış faizlərdən vergini 15% miqdarında müstəqil olaraq tutacaqlar. Bu pullar fiziki şəxsin qeydiyyat yeri üzrə, onun eyniləşdirmə koduna uyğun olaraq dövlət büdcəsinə köçürüləcək. Nəticədə bank sirrinin qorunması problemi həll olunacaq, başlıcası isə vergi orqanı bütün vergiləri tam həcmdə əldə edəcək.

Fiziki şəxs təqvim ili ərzində əldə etdiyi gəlirlər haqqında bəyannaməni vergi administrasiyasına təqdim etməlidir. Bəyannamədə əməkhaqqı barədə ənənəvi məlumatlardan savayı, həm depozitlər üzrə hesablanmış faizlər, həm də ödənilmiş vergilər göstərilməlidir. Fiziki şəxs bu məlumatı depozitin yerləşdirildiyi bankdan alacaq.

Fiziki şəxslərin bəyannamələri vergi işçiləri tərəfindən yoxlanılacaq və təqvim ili ərzində depozitlər üzrə gəlirlərin məbləği yaşayış minimumunun 17 mislindən az olduqda ödənilmiş vergi geri qaytarılacaq. Depozitlər üzrə əldə olunan gəlirlərin məbləği yaşayış minimumunun 204 mislindən çox olduqda vergilər 20% miqdarında, 396 mislindən çox olduqda isə 25% miqdarında hesablanacaq.

Fiziki şəxslərdən bəyannamələr 6 ay ərzində qəbul ediləcək. Bu müddət ərzində bəyannamə verilmədikdə, əvvəl ödənilən vergilərin məbləği kompensasiya edilməyəcək.

Bənzər sistemdən Avropa İttifaqı ölkələrində, o cümlədən Almaniyada istifadə olunur. Ukrayna Aİ ilə assosiasitiv üzvlük barədə sazişi imzaladıqdan sonra öz vergi qanunvericiliyini onun standartlarına uyğunlaşdırmalıdır. Buna görə də vergilərin ödənilməsinin yeni metodikası bütövlüklə Aİ tələblərinə uyğundur və Ukraynanın ona yaxınlaşmasına xidmət edir.

# Latviyada elektron vergi kitabçaları tətbiq olunacaq

*İyunun 1-dən Latviyada vergi kitabçaları yalnız elektron formatda olacaq. Bu kitabçalardan işçilər və işəgötürənlər üçün Dövlət Gəlirlər Xidmətinin (DGX) elektron bəyannamə sistemi (EBS) vasitəsilə istifadə etmək mümkün olacaq.*

İndiyədək vergi kitabçaları olan şəxslərin sənədi avtomatik olaraq elektron formaya keçiriləcək, vergi kitabçası olmayanlar isə onu DGX-yə müraciət etməklə ala bilərlər.

İşəgötürəndə olan vergi kitabçaları 7 il, fiziki şəxsdə olanlar isə 5 il müddətində saxlanılmalıdır. Bu müddət bitən gündən EBS-yə qoşulmaq üçün DGX ilə müqavilə bağlanması tələb olunmayacaq. Bunu latvija.lv portalının təklif etdiyi eyniləşdirmə vasitələrindən, eİD eyniləşdirmə kartından, yaxud elektron imzadan istifadə etməklə həyata keçirmək mümkündür.

Elektron vergi kitabçalarının tətbiqi həm işəgötürənlərə, həm də fiziki şəxslərə onlara yenidən baxmağa və elektron formatda dəyişikliklər etməyə imkan verir.



*Xarici ölkələrin təcrübəsi:*

# Norveç Krallığının vergi sistemi: əlavə dəyər vergisi

Norveç Krallığı Avropa İttifaqına (Aİ) daxil olmasa da, onunla üzvi surətdə bağlıdır - Aİ dövlətlərinin həm iqtisadiyyatında, həm enerji təchizatında, həm də hərbi-siyasi həyatında əvəzsiz rol oynayır. Norveç Krallığının ixracının 63%-i, idxalının isə 38,4%-i Aİ ölkələrinin payına düşür. Norveç qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılmasını şərtləndirən də məhz bu ayrılmaz bağlardır.

Norveç Krallığında ƏDV qanunvericiliyi Aİ üzvlərinin ƏDV sistemlərinin oxşarıdır. Aİ-də olduğu kimi, Norveçdə də ƏDV mal və xidmətlərə tətbiq olunan dolayı istehlak vergisidir. Bu ölkədə ƏDV mal-xidmətlərin təqdim edilməsinin bütün mərhələlərində, malların idxalına və xaricdən alınan xidmətlərə tətbiq edilir. ƏDV məqsədləri üçün qeydiyyatdan keçməmiş alıcı üçün ƏDV alış qiymətinə daxil edilir.

12 aylıq dövr ərzində ümumi satış və ya fərdi istehlakı 50 min Norveç kronundan (8950 ABŞ dolları) artıq olan istənilən şəxs və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələr mal-xidmətlərin təqdim edilməsindən ƏDV hesablayaraq ödəyirlər.

ƏDV-yə cəlb edilən əməliyyatlar aparan dövlət orqanları, xeyriyyə cəmiyyətləri və qeyri-kommersiya təşkilatları üçün də müəyyən şərtlər daxilində ƏDV öhdəliyi yaranır. Əgər hər hansı bir dövlət orqanı digər dövlət orqanına xidmətlər təqdim edirsə, bu əməliyyatlar ƏDV-dən azaddır. Qeyri-kommersiya təşkilatları 12 aylıq dövr ərzində ümumi satış və ya fərdi istehlakı 140 min Norveç kronundan (25000 ABŞ dolları) artıq olmadıqda məcburi ƏDV qeydiyyatından azaddırlar.

ƏDV öhdəliyi aşağıdakı hallarda yaranır:

- ƏDV məqsədləri üçün qeydiyyatdan keçmiş sahibkar tərəfindən ƏDV-dən azad olunanlar da daxil olmaqla bütün növ maddi daşınan əmlakın təqdim edilməsi;
- ƏDV məqsədləri üçün qeydiyyatdan keçmiş sahibkar tərəfindən ƏDV-dən azad olunanlar da daxil olmaqla xidmətlərin təqdim edilməsi;
- istənilən şəxs tərəfindən malların idxal olunması;
- «Reverse charge» mexanizminə uyğun olaraq xaricdən xidmətlərin alınması.

Sahibkarlar öz istehsal etdikləri məhsulları şəxsi istehlak üçün istifadə edərlərsə, bu halda da ƏDV öhdəliyi yaranır.




ƏDV məqsədləri üçün məcburi qeydiyyatdan keçmə üzrə minimum illik dövriyyə 50 min NOK (8950 ABŞ dolları) təşkil edir.

Aşağıdakı əməliyyatlar ƏDV-dən azad olunur:

- müəlliflərin öz müəllif hüquqları əsasında sənət əsərlərinin təqdim edilməsi;
- əsas gəlirləri təşkilata üzvlük haqlarından ibarət olan qeyri-kommersiya təşkilatlarının gəlirləri;
- maliyyə xidmətləri;
- təhsil, səhiyyə və sosial xidmətlər;
- mədəni və idman-sağlamlıq xidmətləri;
- dövlət orqanlarının fəaliyyəti.

Norveçdə ƏDV-nin standart dərəcəsi 25%-dir. Ərzaq tədarükünə 15%-lik azaldılmış dərəcə tətbiq edilir. Ən aşağı 8%-lik dərəcə isə sərnişin nəqliyyatına, mədəni tədbirlərə (muzey, idman yarışları), turist agentlərinə, kino biletlərinə, otel və yerləşdirmə xidmətlərinə tətbiq edilir.

«0» dərəcə ƏDV xaricdə mal-xidmətlərin təqdim olunması (ƏDV məqsədləri üçün Svalbard və Yan-Mayen də xaric hesab olunur), offşorlarda neft əməliyyatları, xarici gəmilərə və təyyarələrin təchiz olunması və təmiri, bilavasitə xaricə (və ya xaricdən) istiqamətlənən nəqliyyat xidmətləri, biznesin yeni sahibinə keçməsi, dövlət yolları və bir sıra dəmir yolları, kitab və qəzetlər, zəmanət təmirlərinə tətbiq edilir.

Norveçdə sahibkarlıq obyektinə malik olan qeyri-rezidentlər ƏDV məqsədləri üçün qeydiyyatdan keçib rezidentlər kimi vergi verməlidirlər. Lakin Norveçdə istifadəçilərə elektron xidmətlər təqdim edən qeyri-rezident satıcılar üçün sadələşdirilmiş ƏDV rejimi tətbiq edilə bilər. Bu rejimdə qeyri-rezident üçün Norveçdə öz nümayəndəsinin olmasına və ƏDV məqsədləri üçün qeydiyyatdan keçməyə ehtiyac qalmır. Həmin satıcılar xidmət təqdim edilməsi zamanı ödədikləri ƏDV-ni əvəzləşdirə bilməsələr, onu geri tələb edə bilərlər.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Yunan mifologiyasında ilahə; 2.Elm və incəsənətdə hər hansı müəllifin yaradıcılığının, ideyasının şüurlu və qanunsuz surətdə mənimsənilməsi; 3.Kinorejissor, kino-operator, ssenarist, Azərbaycanın xalq artistinin adı *(1933-2006)*; 4.Qara dənizin şimal-qərb sahilində şəhər; 5.Cəmiyyətin yüksək təbəqəsi; 6.Fransız pendiri; 9.Ukraynada çay; 13.Afrikada dövlət; 15.Balinalar dəstəsinin dişli balinalar yarımdəstəsinə aid iri dəniz məməlisi növü; 16.Yeni Zelandiyada şəhər; 17.Ən yüksək, nümunəvi sənət əsəri; 18.Fonoqraf kəşf etmiş dünya şöhrətli amerikalı ixtiraçı və sahibkar; 20.Küləkli qar və yağış; 21.Şərqi və Cənubi Asiyanın bəzi ölkələrində ikitəkərli kiçik arabaya qoşularaq sərnişin və yük daşıyan adam.

**Soldan sağa:**

1.Tərs mütənasibliyin qrafikinə *(y=k/x)* verilən ad; 5.Avstraliyada ən böyük axarsız şor göl; 7.ABŞ avtomobil markası; 8.Göyümtül-ağ rəngli metal; 10.Zəkaya və iradəyə malik, bütün maddi və mənəvi proseslərə möcüzəli təsir göstərən fövqəltəbii varlıq kimi Allahın mövcudluğunu qəbul edən dini-fəlsəfi təlim; 11.Ən yüksək qadın səsi; 12.İdarə və müəssisələrin möhürü; 14.Üst paltar üçün naxışlı yun parça; 19.İspan opera müğənnisi, bu yaxınlarda adı vergidən yayınmaqda hallanırdı; 21.«Bəxtiyar» bədii filminə çəkilmiş məşhur Azərbaycan müğənnisi; 22.Avropanın bir qrup ölkələrinin ümumi pul vahidi *(ingiliscə yazılışı)*; 23.Yunan mifologiyasının baş qəhrəmanlarından birinin adı. 1997-ci ildə ABŞ-da eyni adlı tammetrajlı multfilm çəkilmişdir; 24.Rusiyada çay; 25.Bal, maskarad və karnavallarda oynayanların başına, üstünə tökülən rəngbərəng kağız lentlər.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ramana; 2.Vitamin; 3.Anons; 4.İzotop; 5.Şurup; 6.Həmidə *(Ömərova)*; 9.Ştat; 13.Kəbə; 15.Andorra; 16.Akkord; 17.Niyazi; 18.Qranit; 20.Likör; 21.Leqal.

**Soldan sağa:** 1.Revmatizm; 5.Şah; 7.Metronom; 8.Qram; 10.Namus; 11.Ortoped; 12.Oniks; 14.Atlaz; 19.Kolibri; 21.Lider; 22.Orka; 23.Marqarin; 24.Dar; 25.Brilliant.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

idman

# Səmti müəyyən etmə idman növü üzrə beynəlxalq turnir



*Mayın 30-da Xaçmaz rayonunun Yalama qəsəbəsində səmti müəyyən etmə idman növü üzrə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Beynəlxalq Kubok yarışına start verilmişdir.*

İyunun 1-nə qədər davam edən ənənəvi turnirdə Azərbaycanın müxtəlif nazirlik, idarə, təşkilat, ali təhsil müəssisəsi, idman klubları və s. təmsil edən 20-dən çox komanda və 12 ölkədən idmançılar iştirak etmişlər. Yarışda «elit», «open» və «junior» kateqoriyaları üzrə ümumilikdə 200-dən çox idmançı mübarizə aparmışdır. Turnirin keçirildiyi ərazidə video-nəzarət məntəqəsinin quraşdırılması ilk dəfə yarışı internet vasitəsilə canlı izləməyə imkan vermişdir.

Yarışın ilk günündə uzun məsafə üzrə kişilər arasında Aleksandr Trempoltsev (Rusiya) 7.5 km məsafədə 14 nəzarət məntəqəsində qeyd olunaraq bütün rəqiblərini geridə qoymuş və finiş xəttinə birinci çatmışdır. Finlandiyalı idmançı Timo Elo ikinci yeri tutmuşdur. Rəqibindən bir neçə dəqiqə geridə qalan türkiyəli Yaşar İsmət Dəmiröz bürünc medal qazanmışdır. Qadınlar arasında 5.7 km məsafədə 13 nəzarət məntəqəsindən qeydiyyatdan keçməklə təşkil olunmuş yarışda «Neftçi» idman klubunun idmançısı Nataliya Əliyeva qızıl medal qazanmışdır. Yelena Minayeva (Alp Klub 2) ikinci, Büşra Muslu (Türkiyə) isə üçüncü olmuşdur.

Yarışın ikinci günündə kişilər arasında qısa məsafə üzrə türkiyəli idmançı Yaşar İsmət Dəmiröz fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Gümüş medalı isveçli Henrik Flordal qazanmış, üçüncü yeri isə Xüsusi Dövlət Mühafizə Xidmətinin idmançısı İlham Quliyev tutmuşdur. Qadınlar arasında yarışda isə türkiyəli Büşra Muslu qızıl medal qazanmışdır. Nataliya Əliyeva ikinci, Minayeva Yelena isə üçüncü olmuşdur.

İki günün ümumi nəticələrinə əsasən Türkiyə komandası qalib adını qazanmışdır. İkinci və üçüncü yerləri isə müvafiq olaraq, Dağçılıq İdman Klubu və Xüsusi Dövlət Mühafizə Xidməti tutmuşdur.

Yarışın sonunda qaliblərə medal, diplom və qiymətli hədiyyələr təqdim olunmuşdur.

# Velosipedçilərin Milli Qurtuluş Gününə həsr olunmuş yarışı

*İyunun 14-də velosiped idmanının MTB (dağ velosipedi) növü üzrə açıq Azərbaycan çempionatı keçiriləcək. 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş yarışda peşəkar idmançılarla yanaşı, həvəskar dağ velosipedçiləri də iştirak edə bilərlər.*

Müvafiq idman ləvazimatı (velosiped və baş geyimi) olan hər bir həvəskar velosipedçi yarışda iştirak etmək üçün federasiya ilə əlaqə saxlamaqla (012-566-74-88; 077-450-25-13; e-poçt: info@avif.az) qeydiyyata düşə bilər.

Yarış günü iştirakçılar saat 10.00-dan etibarən Veloparkdakı mərkəzi meydanda qeydiyyata alınacaqlar. Yarışa saat 11.00-da start veriləcək. Qeyd edək ki, «Tour d'Azerbaidjan-2014» veloyürüşünün virtual oyun versiyasının qalibi çempionat başa çatdıqdan sonra mükafatlandırılacaq.

Azərbaycan çempionatının nəticələri Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) reytinq siyahısında nəzərə alınacaq. Həm peşəkarlar, həm də həvəskarlar arasında fərqlənən idmançılar federasiya tərəfindən medal, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

# Azərbaycanın xanım boksçusu Avropa çempionudur

*Rumıniyanın paytaxtı Buxarestdə qadınlar arasında boks üzrə Avropa çempionatına yekun vurulmuşdur. Komandamız yarışda 1 qızıl və 1 bürünc medala sahib olmuşdur.*




Çempionatda 69 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz Yelena Vıstropova analıq məzuniyyətindən sonra ilk yarışa çıxsa da, ümidləri doğrultmuşdur. Dünya çempionatının gümüş mükafatçısı finalda İngiltərə boksçusu Steysi Kouplend ilə üz-üzə gəlmişdir. Bu dəfə də inamlı qələbə qazanan idmançımız Avropa çempionu tituluna sahib olmuşdur.

Qeyd edək ki, Y.Vıstropova Azərbaycan boks tarixində qadınlar arasında ilk Avropa çempionudur. Digər boksçumuz Leyla Cavadova (75 kq) isə yarımfinalda Sarah Şoyriçə uduzaraq bürünc medalla kifayətlənmişdir.

mozaika

## Xarici dil və yaddaş

maraqlı

*Edinburq Universitetinin alimləri xarici dillərin öyrənilməsinin xeyrini dünyaya bir daha sübut etmişlər.*



Tədqiqat aparmaq üçün britaniyalılar 11 yaşlı 262 respondent dəvət etmişlər. Müxtəlif testlər vasitəsilə onların intellektual qabiliyyəti və yaddaşı yoxlanılmışdır. Bir neçə onillikdən sonra eksperiment iştirakçıları xüsusi anketlər doldurmuşlar. Bu zaman həmin şəxslərin artıq 70 yaşı olmuşdur.

Alimlər belə qənaətə gəlmişlər ki, yaşadığı müddət ərzində yeni dil öyrənənlərin qiraət, nitq vərdişləri və intellektual qabiliyyəti xeyli yüksək olmuşdur. Araşdıma müəllifləri qeyd edirlər ki, xarici dil öyrənmək heç vaxt gec deyil. Hətta yaşlı vaxtda dil öyrənməyin də müsbət cəhəti vardır.

## Həftənin cümə günü, saat 18.08

***Britaniya sosioloqları müasir avropalının həyatında ən xoşbəxt vaxtı tapmışlar. Onların fikrincə, həmin vaxt həftənin cümə günü, saat 18.08-dir.***

Londonda çıxan «Daily Telegraph» qəzeti yazır: «İnsan cümə günü işdən çıxanda qarşıdan gələn istirahət günlərini necə keçirəcəyi ümidi ilə fərəhli anlar və xoşbəxt hisslər yaşayır. Orta statistik Avropa sakini belə bir duyğunu axşam saat altıdan səkkiz dəqiqə keçmiş daha aydın hiss edir».

Tədqiqatın müəllifi Culuian Qay belə əhvalı «cümə günü şövqü» adlandırmışdır.

Şənbə gününün səhəri xoşbəxt vaxtlar siyahısında ikinci yerdədir. C.Qayın sözlərinə görə, avropalıların əhvalı ən çox həftənin bazar ertəsi, saat 13. 42 dəqiqədə pozulur: «Bütövlükdə, insanlar bazar ertəsini sevmirlər, çünki işlə bağlı streslərin əsas hissəsi həmin gün baş verir».

sağlam həyat tərzi

## Şokolad və insanın emosional əhvalı

Şokoladın insan sağlamlığı üçün faydaları barədə reklam xarakterli çoxlu materiallar yayılır. Şokolad və dondurma vasitəsilə əhvalı yüksəltmək mümkün deyilmiş - Amerika tədqiqatçıları Psixologiya Fənləri Assosiasiyasının xüsusi iclasında bu şirniyyat həvəskarlarını heyrətləndirən belə bir bəyanat vermişlər.



Amerikalı tədqiqatçılar dəfələrlə bildirmişlər ki, bu sevimli şirniyyat insanın emosional əhvalını dəyişmir. Bunu sübut etmək və istehsalçıların uydurmasını təkzib etmək üçün onlar xüsusi və orijinal eksperiment aparmışlar.

Qeyri-adi tədqiqat üçün könüllülərdən ibarət bir qrup yaradılmışdır. Bir həftə insanlar adət etdikləri müxtəlif qidalar qəbul etmiş, adi rejimdən kənara çıxmamışlar. Rəy sorğusunun nəticələri yığıncaqda tədqiqatçıların söylədiklərini təsdiq etmişdir.

Əsas səbəb psixoloji amil və insanın yemək həvəsidir. İnsanın əhvalındakı dəyişikliklə qidanın heç bir əlaqəsi yoxdur. Amma bu tədqiqat heç kəsi həmin şirniyyatlardan imtina etməyə çağırmır və buna məcbur etmir, sadəcə, xəbərdarlıq edir.

## Telefonlar spirtlə işləyəcək

texnologiya

*Finlandiyanın Aalto Universitetinin mühəndisi Canmarino Skotti elektrik enerjisini müxtəlif yanacaq materiallarından - maye hidrogen, etanol və metanoldan hasil edən kiçik və səmərəli yanacaq qurğusu hazırlamışdır.*

C.Skotti doktorluq dissertasiyasında yanacağın keçdiyi dəliklərin sənaye istehsalının çox qənaətcil texnoloji prosesini təsvir edir. Bu onu deməyə əsas verir ki, yeni qurğunun kütləvi istehsalına ən yaxın vaxtlarda başlanılacaqdır.

Qurğudakı dəliklərin hər birinin qalınlığı təxminən bir millimetr, ölçüsü isə 14x14 millimetr təşkil edir. Lazım odluqda onları bir-birinə calamaq və bir massivdə qruplaşdırmaq mümkündür. Dəliklərdən biri spirtlə doldurulduqda 0,5 vatt, maye hidrogenlə doldurulduqda 1 vatt gərginliyində cərəyan ötürür. Telefon üçün bir neçə yanacaq dəliyi yetərlidir və bu halda onlar müasir akkumulyatorlarla müqayisədə daha az yer tutacaqdır. Ən əsası isə odur ki, istifadəçi telefonu istənilən mağazada bir neçə saniyəyə enerji ilə doldura biləcəkdir.

C.Skotti miniatür ölçülü yanacaq qurğusunun istehsalının ucuz başa gəlməsi üçün bir neçə üsul təklif edir. Birincisi, silisium korpusu daha ucuz alüminiumla əvəz etməkdir. Bundan başqa, mühəndis qurğunun istehsalı üçün lazer ablasiyasından - maddənin səthdən lazer impulsu ilə təmizlənməsindən istifadə olunmaqla daha effektiv üsullar kəşf etmişdir.

Alimin proqnozlarına əsasən, spirtlə işləyən ilk mobil telefonlar yaxın onillikdə satışa çıxarıla bilər. Hələ bəzi kiçik problemlər həll olunmalı, yanacaq cihazının doldurulması üsulları tapılmalı və onlar hava çirkləndirməsindən mühafizə edilməlidir. C.Skotti əmindir ki, miniatür yanacaq qurğusu daha çox kosmonavtika sahəsində tətbiq olunacaqdır.

## Nomofobiya – mobil telefonsuz qalmaq qorxusudur

araşdırma



Mobil telefondan istifadə etməyin mümkünsüzlüyü nəticəsində qorxu ilə səciyyələnən yeni xəstəlik nomofobiya adlanır. Telefonun enerji ehtiyatı qurtaranda, şəbəkə itəndə və ya telefon haradasa unudulanda bəzi insanlarda narahatlıq və təlaş yaranır. Bu, ailə və ya dost-tanışlarla əlaqə yaratmaq imkanından asılılıq kimi izah edilir. Yaxınların telefon sahibi ilə xüsusən də fövqəladə hallarda əlaqə yaratmayacağı ehtimalı qorxuya və təlaşa səbəb olur.

Hələ 2008-ci ildə aparılmış tədqiqatlar göstərmişdi ki, insanların 53%-i telefonunu heç vaxt söndürmür, 9%-i isə telefonsuz çox ciddi əsəb keçirir.

Qenui Universiteti bu fobiyanı diaqnostik və statistik dərsliyin psixi xəstəliklər üzrə növbəti buraxılışına daxil edilməsini təklif edir.

Alimlər 15 ildə telefonundan bir saniyə belə ayrılmayan braziliyalını nümunə gətirirlər: o, yalnız telefonla özünü təhlükəsiz hiss edir. Psixiatrlar onun vəziyyətini qismən də olsa yaxşılaşdıra bilsələr də, fobiyanı müalicə edə bilməmişdilər. Həmin şəxs telefonu əlinin altında olmayanda özünü narahat, həyəcanlı hiss edir.

**Müdriklər deyib ki...**



***«Bizə ən çox bənzəyən fantaziyalarımızdır. Hər kəsin arzusu öz təbiətinə uyğun biçilib».***

***Viktor Hüqo (1802-1885)***